Günəş Şərqdən doğur!

№ 189 (5710), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

18 oktyabr 2022-ci il (çərşənbə axşamı)

# Xocavənddə daha bir ərazidə insan sümükləri aşkarlanıb



**İşğaldan azad edilmiş Xocavənd rayonunun Ərəkül kəndi ərazisində təmir tikinti işləri ilə məşğul olan işçilər tərəfindən insan sümükləri aşkarlanıb.**

Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupunun baş inspektoru, polis kapitanı Aslan Qiyaslı deyib.

O bildirib ki, məlumat daxil olduqdan dərhal sonra Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları hadisə yerinə gedib:

"İlkin araşdırma zamanı məlum olub ki, sümüklər ərazidəki yağışlardan sonra baş vermiş torpaq sürüşməsi zamanı üzə çıxıb. Sümüklər həmin yerdən toplanaraq aidiyyəti üzrə ekspertizaya təqdim olunub. Hazırda araşdırma aparılır".

# Azərbaycan Türk Dövlətləri Təşkilatını daha da gücləndirəcək

## Ceyhun Bayramov: "Dost və qardaş dövlətlərimiz qarşıya qoyulan bütün məqsədlərə çatmaq üçün çiyin-çiyinə fəaliyyətlərini davam etdirəcək"




**"Türk Dövlətləri Təşkilatı"nın Strateji Yol Xəritəsinin qəbul edilməsinə xüsusi əhəmiyyət veririk". Bunu Xarici işlər naziri, cənab Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Fövqəladə İclasında çıxışı zamanı deyib.**

Nazir bildirib ki, Türkiyənin sədrliyi dövlətlərimiz arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə töhfə verən çoxsaylı tədbir və fəaliyyətlər ilə zəngin olub:

"İnanıram ki, bugünkü müzakirələrimiz 11 noyabr 2022-ci ildə Özbəkistanda təşkil ediləcək növbəti Zirvə görüşünə hazırlıq baxımından faydalı olacaq.

(Səh.2)

# Leyla Abdullayeva Fransaya səfir təyin edilib

## "Əlaqələrin inkişafına töhfə vermək üçün əlimdən gələni edəcəyəm"



**Leyla Yaşar qızı Abdullayeva Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Prezidentin digər sərəncamı ilə Rəhman Sahib oğlu Mustafayev Azərbaycan Respublikasının Fransa Respublikasında, eyni zamanda Müqəddəs Taxt-Tacda və Monako Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

(Səh.2)

# Rusiyada qırıcı təyyarə yaşayış binasına çırpılıb

## Nəticədə 3 nəfər ölüb, 21 nəfər yaralanıb



**Rusiyanın Yeysk şəhərində çoxmərtəbəli binanın yaxınlığında "Su-34"ün qəzaya uğraması nəticəsində xəsarət alanların sayı 21 nəfərdir, onlardan 4-nün vəziyyəti ağırdır.**

Bu barədə Yeysk Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Miqran Qriqoryan TASS-a bildirib.

Ölənlərin sayı 3 nəfərdir, onların arasında 8-10 yaşlı uşaq da var.

✓ **Ermənistan saxta bəhanələrə son qoymalıdır**
Azərbaycan XİN Paşinyana Zəngəzur dəhlizi ilə bağlı cavab verib
(səh.2)

✓ **Ağ Ev "düyməni basdı"**
İranda küçə iğtişaşları nəzarətdən çıxa bilər
(səh.8)

✓ **"Dünya post-Putin, zəifləmiş Rusiya dönəminə hazırlaşır"**
Natiq Cəfərli: "Yeni modeldə Orta Asiyanın türk respublikalarının üzərinə böyük rol düşür"
(səh.5)

✓ **Boşanmaların sayı azalıb**
Məhkəmədən əvvəl cütlüklərin mediasiyaya müraciət etməsi yavaş-yavaş öz effektini verir
(səh.9)

# Səfirliklərimizə hücumlar sistemli xarakter alıb

## Türkiyə dövləti və diasporası ilə koordinasiyalı şəkildə ermənilərə qarşı mübarizəni daha da artırmalıyıq



**Son zamanlar xarici ölkələrdəki erməni icmalarının radikal üzvləri tərəfindən Azərbaycanın diplomatik nümayəndəliklərinə qarşı hücumlar sistemli xarakter alıb.**

Vaşinqton, Paris, Beyrut və digər şəhərlərdə səfirliklərimizə qarşı törədilən hücumlar, vandallıq aktları ciddi narahatlıq doğurur.

Şübhəsiz, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizin təhlükəsizliyinin təmin edilməsi ev sahibi ölkəsinin beynəlxalq konvensiya ilə üzərinə götürdüyü öhdəliyidir. Əfsuslar olsun ki, bir sıra Qərb ölkələri qanuni öhdəliklərinə əməl etməkdə laqeydlik nümayiş etdirirlər.

(səh.8)



# "Yaşının bu çağında Əkrəm Əylisli gərək səmimi olaydı"

Seyran Səxavət: "Adam birdəfəlik çıxıb demir ki, bu romanı Nobel mükafatı üçün yazmışdım"

(səh.4)



# Əvvəlcə Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalanmalıdır

Yalnız bundan sonra Ankara-İrəvan əlaqələri də normallaşma yoluna girəcək

(səh.4)



# Azərbaycan Türk Dövlətləri Təşkilatını daha da gücləndirəcək

## Ceyhun Bayramov: “Dost və qardaş dövlətlərimiz qarşıya qoyulan bütün məqsədlərə çatmaq üçün çiyin-çiyinə fəaliyyətlərini davam etdirəcək”

**”Türk Dövlətləri Təşkilatı”nın Strateji Yol Xəritəsinin qəbul edilməsinə xüsusi əhəmiyyət veririk”. Bunu Xarici işlər naziri, cənab Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Fövqəladə İclasında çıxışı zamanı deyib. Nazir bildirib ki, Türkiyənin sədrliyi dövlətlərimiz arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə töhfə verən çoxsaylı tədbir və fəaliyyətlər ilə zəngin olub:**

”İnanıram ki, bugünkü müzakirələrimiz 11 noyabr 2022-ci ildə Özbəkistanda təşkil ediləcək növbəti Zirvə görüşünə hazırlıq baxımından faydalı olacaq. Qardaş Özbəkistanın Təşkilatımıza üzv olduqdan sonra ilk dəfə belə bir Zirvəyə ev sahibliyi edəcəyi faktı öz-özlüyündə böyük rəmzi əhəmiyyətə malikdir. Bundan əlavə, əminik ki, növbəti Zirvə görüşü təşkilatımızın daha da güclənməsində mühüm bir mərhələ təşkil edəcək. Zirvə Görüşü zamanı bir sıra mühüm sənədlərin, o cümlədən Türk Dövlətləri Təşkilatının 2022-2026-cı illər üzrə Strateji Yol Xəritəsi, Təşkilatın Prosedur Qaydaları və digər sənədlərin qəbul olunması nəzərdə tutulur. Ümid edirəm ki, ekspertlərimiz bu sənədlərin Zirvə görüşünə qədər tamamlanmasına nail olacaqlar. Bu xüsusda konstruktiv əməkdaşlığa görə bütün üzv və müşahidəçi dövlətlərə, eyni zamanda TDT-nin Baş katibi cənab Bağdat Amreyevə və Katibliyin heyətinə gərgin rejimdə səmərəli iş fəaliyyətinə görə təşəkkürümü bildirmək istərdim”.

**“Katibliyin heyətində bir sıra dəyişikliklərin baş verməsi gündəliyimizdədir”**

Ceyhun Bayramov qeyd edib ki, biz TDT-nin 2022-2026-cı illər üzrə Strateji Yol Xəritəsinin qəbul edilməsinə xüsusi əhəmiyyət veririk. Hesab edirik ki, bu sənəd qısa və hədəf yönümlü olmaqla, qarşıya qoyulan məqsədə çatmağa imkan verəcək: ”Bundan əlavə, Katibliyin heyətində bir sıra dəyişikliklərin baş verməsi də bizim gündəliyimizdədir. Azərbaycan davamlı olaraq, Katibliyin gücləndirilməsinin tərəfdarı kimi çıxış edir və bu anlayışla hərəkət edərək üzv və müşahidəçi dövlətlər tərəfindən irəli sürülən namizədlərin hər biri tərəfimizdən dəstəklənib. Eyni zamanda, Azərbaycan tərəfi də Türk Akademiyasının Prezidenti və TDT-nin Baş katibinin müavini vəzifələri üçün öz namizədlərini təqdim etmişdir, həmin namizədlərin dəstəklənəcəyinə ümid edirik. Növbəti Zirvəyə doğru irəlilədiyimiz bir vaxtda təşkilat çərçivəsində, habelə ikitərəfli əsasda əlaqələrimizin inkişaf etdiyini, dialoqun intensivləşdiyini müşahidə etmək məmnunluq doğurur. Bu kontekstdə, Zati-Aliləri cənab Prezident İlham Əliyevin Türkiyə, Özbəkistan və Qırğızıstan və Qazaxıstana son səfərləri dövlətlərimiz arasında əlaqələrin ortaq düşüncə və qarşılıqlı maraqlara söykənən xüsusi xarakterli münasibətlər olmasını bir daha nümayiş etdirib”.

**“Olduqca faydalı olduğuna inanırıq...”**

Azərbaycanın XİN başçısı Şuşa şəhərinin türk dünyasının 2023-cü ildə mədəniyyət paytaxtı seçilməsinə verilən xüsusi əhəmiyyətdən də söz açıb. Qeyd edib ki, təşkilatın Şuşa şəhərinin təbliğ və təşviq edilməsində xüsusi rol oynadığını, burada təşkilatın himayəsi ilə müxtəlif tədbirlərin təşkil edilməsini məmnunluqla izləyirik: ”Bu xüsusda, 16 sentyabr 2022-ci ildə keçirilmiş Şuşa Türk Biznes Forumu Azərbaycanın azad edilmiş Qarabağ bölgəsinin dağıdıcı işğaldan sonra inkişafının dəstəklənməsinin konkret istiqamətlərinin müəyyən edilməsində təşkilatın oynaya biləcəyi rolun və xüsusi istiqamətlərin müəyyən edilməsi baxımından olduqca faydalı olduğuna inanırıq. Eyni qaydada, Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin rəsmi beyin mərkəzlərinin bu ilin iyul ayında Şuşada keçirilmiş görüşü də dövlətlərimiz arasında əməkdaşlıq və tərəfdaşlığın inkişaf etdirilməsi ilə bağlı ciddi müzakirələrin aparılması üçün vacib bir platforma olub”.

**“Azərbaycan tərəfi TDT-nin fəaliyyətini hər zaman dəstəkləyir”**

Ceyhun Bayramov əlavə edib ki, geniş coğrafiyamızda baş verən sürətli proseslər və regionumuzun, eləcə də ümumilikdə türk coğrafiyasının əhəmiyyətinin artması fonunda, bir tərəfdən ortaya çıxan yeni çağırışlarla mübarizənin səmərəli təşkili, digər tərəfdən isə yeni fürsətlərin xalqlarımızın və dövlətlərimizin mənafeləri naminə reallaşdırılması məqsədilə birgə fəaliyyətimiz gücləndirilməlidir: ”Bu məqsədlərə nail olmaq üçün TDT çox əhəmiyyətli platformadır. Azərbaycan tərəfi TDT-nin fəaliyyətini hər zaman dəstəkləyir və bundan sonra da TDT-nin çətiri altında qardaş xalqlarımız arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün səy göstərəcəkdir. Bu xüsusda, TDT-nin əlaqəli qurumları da fəaliyyətlərinin daha artırması, o cümlədən Koordinasiya Komitəsinin işinin gücləndirilməsi olduqca vacibdir. İnanıram ki, dost və qardaş dövlətlərimiz qarşıya qoyulan bütün məqsədlərə çatmaq üçün çiyin-çiyinə fəaliyyətlərini davam etdirərək, türk dünyasının parlaq gələcəyinə bundan sonra da töhfə verməyə davam edəcəklər. Bir daha iclasın yüksək səviyyədə təşkilinə görə Türkiyə tərəfinə, xüsusilə qardaşım Mövlud Çavuşoğluna təşəkkürlərimi bildirir, gələn ay qardaş Özbəkistanda yenidən görüşmək ümidi ilə çıxışımı bitirirəm”.

**“Zəngəzur dəhlizi açıldıqdan sonra Orta Dəhlizin səmərəliliyi daha da artacaq”**

TDT-nin Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım deyib ki, nəqliyyat və rabitə təməllərinin inteqrasiyasının artırılması baxımdan Orta Dəhlizin əhəmiyyəti çox yüksəkdir. O qeyd edib ki, bu dəhliz tarixi ticarət yolu olmaqla yanaşı, həm də iqtisadi baxımdan digər ticarət yollarından daha tez və sərfəlidir: ”Rusiya-Ukrayna qarşıdurması son dövrdə bu dəhlizin daha təhlükəsiz və işlək olduğunu bir daha göstərdi. Azərbaycan ilə Naxçıvanı birləşdirən Zəngəzur dəhlizi açıldıqdan sonra bu dəhlizin səmərəliliyi daha da artacaq. TDT-yə üzv ölkələr bu dəhlizin üzərində yerləşir və Zəngəzur dəhlizinin tezliklə açılması hər birimizin maraq dairəsi daxilində olmalıdır”. Bu il noyabrın 11-də Səmərqənddə keçiriləcək Türk Dövlətləri Təşkilatının Zirvə Toplantısında müzakirə olunacaq məsələlərə diqqət çəkən Binəli Yıldırım bildirib ki, TDT-nin xarici ölkələrlə ümumilikdə ticarət həcmi 700 milyard ABŞ dollar olduğu halda, TDT ölkələri arasında bu məbləğ 20 milyard dollar təşkil edir. O əlavə edib ki, bu rəqəmin artırılması müzakirə olunmalıdır və Səmərqənddə keçiriləcək Liderlər Zirvəsində sərbəst ticarət anlaşmasının imzalanması gözlənilir.

**İsmayıl**

# Leyla Abdullayeva Fransaya səfir təyin edilib

## “Əlaqələrin inkişafına töhfə vermək üçün əlimdən gələni edəcəyəm”



**Leyla Yaşar qızı Abdullayeva Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Prezidentin digər sərəncamı ilə Rəhman Sahib oğlu Mustafayev Azərbaycan Respublikasının Fransa Respublikasında, eyni zamanda Müqəddəs Taxt-Tacda və Monako Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

**”Azərbaycanın Fransadakı səfiri vəzifəsinə təyinata görə Azərbaycan Respublikasının Prezidenti, Zati-Aliləri cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm”.**

**Bu barədə Leyla Abdullayeva bildirib.**

”Bu yüksək etimadı doğrultmaq, Azərbaycan-Fransa münasibətlərinin inkişafına töhfə vermək üçün əlimdən gələni əsirgəməyəcəyəm”, - səfir qeyd edib.

*Xatırladaq ki, Leyla Abdullayeva Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi idi.*

**Ermənistan 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanatdakı öhdəliklərindən yayınmaq üçün saxta bəhanələrə son qoymalıdır.**

Bu barədə Azərbaycan XİN-dən Ermənistan Baş naziri Nikol Paşinyanın Zəngəzur dəhlizi ilə bağlı paylaşımına cavab olaraq bildirilib.



# Ermənistan saxta bəhanələrə son qoymalıdır

## Azərbaycan XİN Paşinyana Zəngəzur dəhlizi ilə bağlı cavab verib

”Ermənistan 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanata əsasən, Zəngəzur dəhlizi ilə avtomobil/dəmir yollarının birləşdirilməsi üzrə öhdəliklərindən yayınmaq üçün saxta bəhanələrə son qoymalıdır. 20 ay davam edən müzakirələrə məhəl qoymadan əlaqələnmə üçün 3 qeyri-real buraxılış məntəqələri variantını təklif etmək doğru siyasət deyil”, - qeyd olunub.

*Xatırladaq ki, Paşinyan Azərbaycanın şərqi ilə Naxçıvan arasında əlaqəni təmin etmək üçün Ermənistan-Azərbaycan sərhədində 3 buraxılış məntəqəsinin açılması ilə bağlı Ermənistan hökumətinin qərar layihəsini artıq bir müddətdir açıqlandığını və hökumətin Azərbaycan tərəfindən bu təklifə müsbət cavab veriləcəyini gözlədiyini deyib.*




# Türk cümhuriyyətləri tarix yazır

## Türkmənistanın Türk Dövlətləri Təşkilatına üzvlüyü gözləniləndir

**Noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının növbəti sammiti keçiriləcək. Sammitdə Türkmənistanın Türk Dövlətləri Təşkilatına tamhüquqlu üzv olmasına qərar veriləcək. Xatırladaq ki, Türkmənistan TDT-da müşahidəçi statusunda çıxış edirdi. Türkmənistandan sonra təşkilatın tamhüquqlu üzvlərinin sayı 6-ya çatacaq.**

> İlkin mərhələdə Kuzey Kıbrısın quruma tam üzv olması yox, məşvərətçi statusda dəvəti mümkündür

Digər 5 üzv - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandır. Səmərqənddə keçiriləcək sammit öncəsi tez-tez gündəmə gələn məsələlərdən biri də Şimali Kıbrıs (Kipr) Türk Cümhuriyyətinin də nəhayət TDT-nin çətiri altında yer almasıdır. Ən azından ilkin mərhələdə Şimali Kıbrısa müşahidəçi satutusun verilməsi də təkliflər arasındadır. Hesab edilir ki, ABŞ-ın Cənubi Kipr Respublikasını silahlandırması, Yunanıstanın Ermənistanla daha da yaxınlaşması fonunda bu məsələ daha da aktuallaşıb. Ona görə də TDT-də 6 yox, 7 türk cümhuriyyətinin təmsil olunması təklif edilir.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, Türk Dövlətləri Təşkilatı yeni formalaşdığına və siyasi hücumlara məruz qaldığına görə bir müddət möhkəmlənmə dövrü keçməlidir. Professorun fikrincə, Türkmənistanın təşkilata üzv olması labüd idi:** "İstənilən addım atılarkən onun doğura biləcəyi problemlər və mövcud siyasi reallıqlar da nəzərə alınır. Əlbəttə, Kuzey Kıbrıs Türk Cümhuriyyətinin tanınması və türk dövlətləri ilə sıx əməkdaşlığı çox önəmlidir. Azərbaycan Kuzey Kıbrısla bir sıra sahələrdə yaxın əlaqələrə malikdir. Görünür, indiki halda KKTC-nin TDT-yə üzv qəbul edilməsi yeni-yeni güclənmək yolunu tutmuş quruma problemlər yarada bilər. Kuzey Kıbrıs kimi Tatarıstan, Başqırdıstan, Kalmıkiya kimi respublikalar da TDT-ya qoşulmaq üçün müraciət edə bilərlər. O baxımdan çoxları hesab edir ki, ilkin mərhələdə Kuzey Kıbrısın quruma tam üzv olması yox, məşvərətçi statusda dəvəti mümkündür".

*C.Nuriyev qeyd edib ki, Türkiyənin özü cümhuriyyətin rəsmən tanınması ilə bağlı prosesə başlamağa tələsmir:* "Ankara ona qarşı hücumların artacağının fərqindədir. Xüsusən, Yunanıstanla yaşanan gərginlik fonunda bu addım gərginliyi daha da artırar. Ancaq niyə də olmasın?! Kosovanı da belə tanıdılar. Bir çox ölkələr Kosovanın müstəqilliyini tanımasalar da, tanıyanlar da var. Kuzey Kıbrısın bir nömrəli qarantı və onu müstəqil dövlət kimi tanıyan yeganə ölkə Türkiyədir. Şübhə etmirəm ki, lazım olan məqamda, siyasi qərar olanda bir neçə ölkə Kuzey Kıbrıs Türk Cümhuriyyətinin müstəqilliyini tanıyacaq. Bu da yeni bir türk dövlətinin doğuşu olacaq".

**İsmayıl Qocayev**



# Xarici diplomatlar Gəncədə Ermənistanın raket hücumlarında şəhid olanların xatirəsini anıblar

**Bu gün Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri Gəncəyə səfər edərək burada Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olmuş mülki şəxslərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər.**

Diplomatlar abidə kompleksi önünə gül dəstələri düzərək Gəncəyə raket zərbələri nəticəsində həlak olanların xatirəsini ehtiramla yad ediblər.

*Qeyd edək ki, 2020-ci il oktyabrın 17-də gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə Ermənistan silahlı qüvvələrinin 5-ci raket hücumundan iki il ötür. Bu hücum nəticəsində 15 nəfər həlak olub, 79 nəfər yaralanıb.*

# İranın 11 fiziki və 4 hüquqi şəxsinə sanksiya tətbiq edib

**Avropa İttifaqı (Aİ) İranın 11 fiziki və 4 hüquqi şəxsinə sanksiya tətbiq edib.**

"Report" xəbər verir ki, məlumatı TASS yayıb.

Bildirilib ki, Aİ xarici işlər nazirləri oktyabrın 17-də İrandakı vəziyyəti və etiraz aksiyalarının iştirakçılarına qarşı tətbiq edilən zorakılığı müzakirə ediblər.

Məlumata görə, sanksiya siyahısına İranın əxlaq polisinin başçısı da daxil edilib.




# "Elnur Əşrəfoğlu xatirələrdə"

## Mətbuat Şurasında təqdimat keçirilib

**Bu gün Azərbaycan Mətbuat Şurasında tanınmış idman jurnalisti mərhum Elnur Əşrəfoğluna həsr olunmuş "Elnur Əşrəfoğlu xatirələrdə" kitabının təqdimat mərasimi keçirilib.**

Toplantıda öncə Vətən uğrunda canından keçmiş övladlarımızın, şəhid media təmsilçilərinin, dünyasını dəyişmiş jurnalistlərin xatirələri bir dəqiqəlik sükutla anılıb.

**Şuradan "Şərq"ə bildirilib ki, tədbiri giriş sözü ilə açan MŞ sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid bildirib ki, bir il öncə E.Əşrəfoğlunun vəfatı onu tanıyan hər kəsi sarsıtdı, üzüntüyə və kədərə qərq etdi.** Buna görə təqdimatı keçirilən kitab həm təsəllidir, həm də jurnalistin ruhuna etiramdır.

R.Məcid həmçinin vurğulayıb ki, idman jurnalistikasının simasına çevrilmiş E.Əşrəfoğlu ümumilikdə ötən əsrin 90-cı illərində yetişmiş jurnalist nəslinin parlaq istedadı, bacarığı və təşəbbüskarlığı ilə seçilən nümayəndələrindəndir. O, bənzərsiz peşə duyumu, professional keyfiyyətləri ilə tanınmışdısa, incə yumor tərzi, qayğıkeşliyi, dostcanlılığı ilə də hörmət qazanmışdı. "Əmək fəaliyyətinə 1992-ci ildə "525-ci qəzet"də başlamış Elnur idman jurnalistikasına yeni ruh gətirmişdi. Buna görə müasir dövr idman jurnalistikasının simvollarındandır. Onun xatirəsinə ehtiram əlaməti kimi ərsəyə gəlmiş kitab bu baxımdan da müstəsna əhəmiyyət daşımaqdadır", - deyən R.Məcid E.Əşrəfoğlu ilə bağlı xatirələrini yada salıb.

Toplantıda çıxış edənlərdən MŞ İdarə Heyətinin üzvü, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli, tanınmış telejurnalist Telli Pənahqızı, tanınmış naşir və şoumen, Azərbaycan Respublikasının əməkdar artisti Bəhram Bağırzadə, ATV telekanalının İdman informasiya proqramının redaktoru və aparıcısı İlkin Xəlilov, telekanalın digər əməkdaşı Sənan Şəfizadə, AZTV-nin əməkdaşı İman Orucov, Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli, "Elnur Əşrəfoğlu xatirələrdə" kitabının hazırlanmasında əməyi keçən filologiya üzrə fəlsəfə doktoru Təranə Çərkəzqızı mərhum jurnalisti peşəkar televiziyaçı, dost, yüksək mənəvi keyfiyyətləri ilə seçilmiş vətənpərvər, əsl ziyalı, mərd və bütöv xaraktere malik insan, gözəl ailə başçısı kimi xarakterizə edərək xatirə dolu fikirlərini bölüşüblər.

Toplantıda Elnur Əşrəfoğlunun adının əbədiləşdirilməsi məqsədilə idman jurnalistləri üçün nəzərdə tutulacaq mükafatın təsis edilməsinə dair təklif yekdilliklə bəyənilib, mövcud istiqamətdə işlərin aparılmasının, prosesə Mətbuat Şurasının da dəstək verməsinin zəruriliyi vurğulanıb. Belə bir qədirbilənliyin nəinki idman mediasının, ümumilikdə jurnalistikanın stimullaşdırılmasına əməli töhfə, E.Əşrəfoğlunun həyat yoluna dəyər nümunəsi kimi gənc nəslə örnək ola biləcəyi diqqətə çatdırılıb.

Toplantıda çıxış edən E.Əşrəfoğlunun atası Əşrəf Şükürov, həyat yoldaşı İlahə Şükürova mərhumun xatirəsinə dəyər verdikləri üçün tədbir iştirakçılarına, təqdimatı keçirilən nəşrin ərsəyə gəlməsində əməyi keçən şəxslərə təşəkkürlərini çatdırıblar.

Qeyd edək ki, Elnur Əşrəf oğlu Şükürov 19 iyun 1974-cü ildə Mingəçevir şəhərində anadan olub.




BDU-nun Beynəlxalq əlaqələr və beynəlxalq jurnalistika fakültəsini bitirib. 1992-1993-cü illərdə "525-ci qəzet"də müxbir işləyib. 1993-cü ildən 2010-cu ilədək Azərbaycan Televiziyasında müxbirlikdən baş redaktorluğa qədər fəaliyyət yolu keçib. 1997-ci ildə İdman Jurnalistləri Asssosiasiyasının ilk üzvlərindən olub. Yay və qış olimpiya oyunlarında Azərbaycandan təyin olunmuş jurnalist kimi iştirak edib.

Milli Olimpiya Komitəsinin üzvü kimi də fəaliyyət göstərmiş E.Əşrəfoğlu 2010-cu ildə "Neftçi" İdman Klubunun Mətbuat və İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri vəzifəsini tutub. 2011-2012-ci illərdə "Space TV"də İdman departamentinin rəhbəri olub. 2015-ci ildən həyatını Azərbaycan Cüdo Federasiyası ilə bağlayıb. Burada əvvəlcə Mətbuat və İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri, 2018-ci ildən başlayaraq isə qurumun baş katibinin müavini vəzifələrində çalışıb. E.Əşrəfoğlu 2021-ci ilin oktyabrın 19-da "COVID 19" xəstəliyindən dünyasını dəyişib.

Onu da bildiririk ki, "Elm və təhsil" Nəşriyyatında çapdan çıxmış "Elnur Əşrəfoğlu xatirələrdə" kitabının redaktoru və ön söz müəllifi professor Qulu Məhərrəmli, tərtibçiləri AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Təranə Çərkəzqızı və Neftçi İdman Klubunun həkimi İlahə Şükürova, rəyçisi ATV-nin İdman informasiya proqramının redaktoru və aparıcısı İlkin Xəlilovdur. Kitabda E.Əşrəfoğlun həmkarları, dostları, doğmaları və əzizləri olmaqla ümumilikdə 30-dan çox şəxsin onun barədə qeydləri, tanınmış jurnalistin həyatının müxtəlif illərinə aid fotolar yer alıb.

**Aygün Tahir**

# Əvvəlcə Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalanmalıdır

## Yalnız bundan sonra Ankara-İrəvan əlaqələri də normallaşma yoluna girəcək



**Ankara Ermənistanla münasibətlərin normallaşması prosesində növbəti dəfə futbol diplomatiyasına əl ata bilər. Bunu Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komissiyasının sədri Akif Çağatay Kılıç deyib.**

Onun sözlərinə görə, martın 25-də Ermənistanda, sentyabrda isə Türkiyədə *(Avro-2024-ün seçmə mərhələsi çərçivəsində - red.)* iki ölkənin milli komandaları arasında futbol oyunları keçiriləcək: "Komandamız ora gedəcək, ola bilsin ki, biz də getdik. Normallaşma prosesi müsbət gedir. Ermənistanın Azərbaycanla münasibətlərində də müsbət dinamika müşahidə olunur. Bu, təxribatlara əl atmadan edilməlidir". Xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ermənistan Baş naziri Nikol Paşinyan arasında təmaslardan sonra iki ölkənin münasibətlərinin normallaşması yenidən gündəmdədir. Liderlərin görüşündən sonra ölkələri təmsil edən xüsusi nümayəndələrin üçüncü dövlətin ərazisində deyil, Türkiyə və Ermənistanda görüşməsi qərarlaşdırılıb.

**İki ölkənin əlaqələrinin normallaşması prosesi ilə bağlı "Şərq"ə danışan "Turan" İnformasiya Agentliyinin rəhbəri, politoloq Mehman Əliyev deyib ki, Türkiyə-Ermənistan əməkdaşlığının formalaşması üçün ilk növbədə Azərbaycan-Ermənistan arasında sülh müqaviləsi bağlanmalıdır. Ekspert xatırladıb ki, Türkiyə rəhbərliyi dəfələrlə bəyan edib ki, İrəvanla əlaqələrin düzəlməsi, sərhədlərin açılması Qarabağ probleminin birdəfəlik həllindən asılıdır:** "O baxımdan Azərbaycan və Ermənistan arasında yekun sülh sazişi imzalanmalıdır ki, Ankara-İrəvan əlaqələri də normallaşma yoluna girsin. Azərbaycanla Ermənistan arasında müqavilə imzalanmamış Türkiyə İrəvanla heç bir sənədə imza atmayacaq. 2009-cu ildə Sürix protokollarını xatırlatmaq yerinə düşər. Həmin proses ona görə pozuldu ki, Türkiyə buna getmək istəmirdi. Ancaq beynəlxalq təzyiqlər, öhdəliklər olduğuna görə Sürix prosesi başlanmışdı. Amma Türkiyə bundan uğurla qaçdı. Birmənalı bəyan etdi ki, Azərbaycanın Qarabağ məsələsi çözülənədək Ermənistanla sərhədlər bağlı qalacaq. Bu siyasət eyniylə qalmaqdadır və yaxın zamanda dəyişəcəyinə inanmıram. Bir daha təkrar edirəm, Bakı-İrəvan sülh sazişinə imza atandan sonra Türkiyə-Ermənistan münasibətləri də normallaşma mərhələsinə qədəm qoyacaq. Ermənistanın Türkiyəyə əsassız ərazi iddiaları, qondarma "soyqırım" və s. məsələlər də öz aktuallığını itirəcək. İki ölkə əhalisinin, xüsusən ermənilərin Türkiyəyə gediş-gəlişi, ticarətin başlaması bu tipli siyasi məsələləri arxa plana atacaq".

**İsmayıl Qocayev**

## "Bu, etimadın yaradılmasına xidmət edəcək"

### Şarl Mişel: "Aİ missiyasının Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməsini alqışlayıram"

**Avropa İttifaqı missiyasının Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməsini alqışlayıram.**

Bu barədə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel tviterdə qeyd edib.

"Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və Fransa Prezidenti Emmanuel Makronla görüşünün ardınca monitorinq missiyasının Ermənistanda onun Azərbaycanla sərhədi boyunca yerləşdirilməsini alqışlayıram. Bu, etimadın yaradılmasına xidmət edəcək", - paylaşımda qeyd edilir.

## Ararat Mirzoyan Aİ-nin texniki qrupunun nümayəndələri ilə görüşüb



**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Avropa İttifaqının (Aİ) İrəvanda səfərdə olan texniki qrupunun nümayəndələri ilə görüşüb.**

APA xəbər verir ki, bu barədə Ermənistan XİN-in "Twitter" hesabında məlumat verilib.

Bildirilib ki, görüşdə Ermənistan XİN başçısı və Aİ-nin texniki qiymətləndirmə qrupu Ermənistan-Azərbaycan sərhədində yerləşdiriləcək Aİ monitorinq missiyasının iş üsullarını, hara yerləşdiriləcəklərini və digər detalları müzakirə ediblər.

# Ermənistan Ordusu 30 il güclü istehkam qurmuşdu

## Millət vəkili: "Füzulinin işğaldan azad edilməsi ilə düşmənin müdafiə xətti demək olar ki, tamamilə dağıdılıb"

**Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində aparılan döyüş əməliyyatları ilə 2020-ci il oktyabrın 17-də Füzuli şəhəri erməni işğalından azad edilib.**

Döyüşlər başlayandan oktyabrın 17-dək Füzuli rayonunun bir neçə kəndi uğurlu əməliyyatlarla işğaldan azad olunub. Füzuli şəhərinin işğaldan azad edilməsi xəbərini isə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabrın 17-də xalqa müraciətində çatdırıb.

**Milli Məclisin deputatı, professor Kamilə Əliyevanın da "Şərq"ə açıqlamasında dediyi kimi Füzuli şəhərinin işğaldan azad edilməsi uğrunda şiddətli döyüşlər gedib:** "Düşmənin müqavimətini qıran Azərbaycan Ordusu onu geri çəkilməyə məcbur edib, ağır məğlubiyyətə uğradıb. Füzuli əməliyyatı zamanı Ermənistan ordusunun xeyli canlı qüvvəsi və texnikası məhv edilib.

Azərbaycan Respublikasında "Füzulinin azad olunmasına görə" medalı təsis olunub. Prezident İlham Əliyevin Sərəncamı ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş hərbi qulluqçular "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub". Füzuli haqqında geniş məlumata sahib olan millət vəkili rayonun işğal tarixi və itkilərlə bağlı da kiçik bir xatırlatma edib: "Azərbaycanın ən böyük yaşayış məskənlərindən biri olan Füzuli rayonu 1993-cü il avqustun 23-də Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib. İşğala qədər Füzuli rayonu ərazisində qədim tarixi, mədəni abidələr, türbələr mövcud olub. Ermənilər işğal müddətində Füzuli şəhərini, rayonun kəndlərini dağıdıb, XIII - XIV əsrlərdə bu yurdun yerli sakinləri tərəfindən tikilən qədim abidələr dini, tarixi, mədəni abidələrə, qəbiristanlıqlara, eləcə də təbiətə qarşı vandallıq əməlləri törədib.





"Yaxın vaxtlarda Füzuli əvvəlki görkəmindən qat-qat gözəl və müasir bir şəhərə çevriləcək"

Ermənistanın işğalçı ordusu ilə mərdliklə vuruşan füzulililər 63 nəfər şəhid verib, 400 nəfər əlil olub, 181 nəfər əsir və itkin düşüb.

Onu da deyim ki, 1386 kvadrat kilometr ərazisi, 144 min əhalisi olan Füzuli rayonu Cəbrayıl, Xocavənd, Ağcabədi və Beyləqan rayonları ilə, eləcə də Araz çayı boyunca İranla həmsərhəddir. Füzulinin əsası 1827-ci ildə qoyulub və Qarabulaq adlandırılıb. 1930-cu ildə rayon təşkil olunmuş və Qaryağin, 1959-cu ildə isə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Füzuli adlandırılıb. 5 yanvar 1994-cü ildə Prezident, Ali Baş Komandan olmuş ulu öndər Heydər Əliyevin əmrinə əsasən Azərbaycan Ordusu uğurlu hərbi əməliyyat keçirərək Füzuli rayonunun 22 yaşayış məntəqəsini işğaldan azad edib".

Füzuli uğrunda aparılan döyüşlərin Vətən müharibəsində ən ağır, çətin döyüşlərdən biri olduğunu vurğulayan K.Əliyeva bildirib ki, 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı ilə əks hücum əməliyyatına başlayıb: "Vətən müharibəsinin elə ilk günü qəhrəman əsgər və zabitlərimiz bir neçə kəndimizi işğaldan azad edib. 17 oktyabr 2020-ci il tarixində Azərbaycan silahlı qüvvələri Füzuli şəhəri də daxil olmaqla rayonun 62 kəndini işğaldan tam azad edib. Füzulinin işğaldan azad edilməsi ilə düşmənin müdafiə xətti demək olar ki, tamamilə dağıdılıb. 30 il Ermənistan Ordusu burada 5- 6 xətdən ibarət güclü istehkam qurmuşdular. Hərbi ekspertlər bu müdafiə xətlərini yarmaq üçün istənilən orduya bir neçə ay vaxt lazım ola biləcəyini vurğulayırdılar. Azərbaycanın igid oğulları dünyanı heyrətə sala biləcək böyük qəhrəmanlıq nümayiş etdirərək qısa müddətdə bu müdafiə xətlərini tamamilə dağıtdılar. Ermənistan silahlı qüvvələrinin törətdiyi hərbi təxribat nəticəsində mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə dəyən ziyanın qiymətləndirilməsi üçün beynəlxalq ekspertlərin də iştirakı ilə hesablamalar aparılacaq və ermənilər tərəfindən bu ziyanın ödənilməsi üçün beynəlxalq məhkəmələrdə vəsatət qaldırılacaq".

**Millət vəkilinin sözlərinə görə, təsdiqlənmiş Baş Plana uyğun olaraq Füzuli rayonu yenidən qurulur.** Vətən müharibəsi başa çatdıqdan sonra Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 9 dəfə Füzuli rayonuna səfər edib: "Ölkə başçımız Füzulidə bir çox sosial obyektlərin, yaşayış evlərinin, eləcə də Füzuli-Şuşa avtomobil yolunun - Zəfər yolunun təməlqoyma mərasimlərində iştirak edib. Bu gün Füzulidə Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə tikilmiş, təməlqoyma və açılış mərasimlərində ölkə başçımızın şəxsən özünün iştirak etdiyi Beynəlxalq Hava Limanı fəaliyyətə başlayıb. Yaxın vaxtlarda Füzuli əvvəlki görkəmindən qat-qat gözəl və müasir bir şəhərə çevriləcək".

**Şəymən Bayramova**

# Xarici qüvvələrin oyunları artıq keçərli deyil

## Ermənistan Brüsseldə üzərinə öhdəlik götürüb



"Paşinyan çoxdan sülh müqaviləsini imzalamaq istəyir, lakin indiyə qədər Rusiya, İran kimi müəyyən qüvvələr ona mane olub"

**Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində həyata keçirilən proses tədricən kulminasiya nöqtəsinə yaxınlaşır. Oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.**

Görüşdən sonra jurnalistlərin suallarını cavablandıranTürkiyə dövlət başçısı bildirib ki, hazırda Zəngəzur dəhlizi ilə bağlı məsələdə hər hansı bir problem görmür.

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu da Azərbaycan və Ermənistanın sülh müqaviləsinin fundamental bəndləri üzrə razılığa gəldiyini bəyan edib. Son olaraq oktyabrın 15-də isə N.Paşinyan özünün "Twitter" hesabında Ermənistanın Azərbaycana oktyabrın 31-də Brüsseldə delimitasiya üzrə komissiya iclasını keçirməyi təklif etdiyini qeyd edib.

**Yekun sülhlə bağlı "Şərq"ə danışan politoloq Cümşüd Nuriyev bildirib ki, Ermənistan çoxdan bu sülh müqaviləsini imzalamaq istəyir, lakin indiyə qədər Rusiya, İran kimi müəyyən qüvvələr ona mane olub:** "Burda aranı qarışdırmaq istəyən əsas qüvvələrdən biri də Fransadır. Bunlar azmış kimi Fransa Prezidenti Emmanuel Makron da bir tərəfdən siyasi riyakarlıq edir. E.Makron ağıllı siyasətçi deyil. Onun uzaqgörənliyi yoxdur. Hadisələrin sonunu düşünə bilmir. Görünən odur ki, bu ölkələrin, eyni zamanda, digər böyük dövlətlərin Cənubi Qafqaz maraqları var.

Təəssüf ki, ölkəmiz o maraqların kəsişmə nöqtəsində yerləşir. Bir neçə istiqamətdə olan bu maraqlar Azərbaycan-Ermənistan arasında yekun sülhün imzalanmasına da əngəl törədir. Ona görə Ermənistan sərhəddə hərbi texnika, silah yığır. Çaşqınlıq yaradır. Amma bu oyunlar artıq keçərli deyil.

Çünki Ermənistan Brüsseldə üzərinə öhdəlik götürüb. İndi onu yerinə yetirmək məcburiyyətindədir. Sonuncu Brüssel görüşündən sonra Azərbaycan prezidentinin yürütdüyü siyasət Ermənistanı çıxılmaz dalana salıb".

**C.Nuriyev diqqətə çatdırıb ki, biz ilin axırına qədər yekun sülhün imzalanmasını gözləyirik:** "Türkiyə Pprezidenti Rəcəb Tayyib Ərdoğan və XİN başçısı Mövlud Çavuşoğlu Türkiyənin Ermənistanla sərhəddi açmağa hazır olduğunu bəyan etdi. Ancaq bu şərtlə ki, rəsmi İrəvan Azərbaycanın şərtlərini yerinə yetirsin. Buna görə də Türkiyə tərəfi sülhün imzalanacağına daha əmindir. Görünən odur ki, nə qədər pozucu qüvvələr təsir göstərməyə çalışsa da, proses rəsmi Bakının maraqlarına uyğun şəkildə davam edəcək.

İndi Azərbaycan yaxın iki ay ərzində Ermənistanla nəzərdə tutulan yekun sülhü imzalamaq ərəfəsindədir".

**Günəş Mərd**

# Azərbaycan diplomatları hədəfdə!

## Erməni terroruna "dur!" deməyin zamanıdır



**"Ermənistan hər zaman terror təşkilatları yaradaraq, müxtəlif zamanlarda qanlı terror aktları törədiblər".**

**Bu sözləri "Şərq"ə açıqlamasında da millət vəkili Cavid Osmanov deyib. Deputatın sözlərinə görə, xüsusən də terror təşkilatlarının əsas hədəfi məhz türk diplomatları olub:**

"1970-80-ci illərdə türk diplomatlarına qarşı amansız sui-qəsdlər törədiblər. 2020-ci ilin iyul ayının 12-də Ermənistan Tovuz istiqamətində Azərbaycana qarşı genişmiqyaslı hərbi provokasiyalar təşkil etdiyi zamanda Los-Ancelеs və digər ərazilərdə diplomatik nümayəndələrimizə erməni terror və radikal qruplaşdırmalarının hücumları olub.

Həmçinin Amerikada yaşayan sivil vətəndaşlarımıza qarşı, o cümlədən bir neçə gün əvvəl rəsmi Vaşinqtonda Azərbaycan diplomatik nümayəndələrinin xudməti avtomobilinə atəş açıldı. Əlbəttə ki, bütün bunların kökündə erməni lobbisi və onun yürütdüyü siyasətin mərkəzində terrorizm dayanır.

Dünyanın gözü qarşısında Fransada, ABŞ-da və digər ölkələrdə Azərbaycanın diplomatik nümayəndələrinə, o cümlədən sivil soydaşlarımıza qarşı açıq-aşkar terror hadisələri həyata keçirilir".

**C.Osmanovun qənaətincə, dünya artıq bundan ciddi şəkildə nəticə çıxarmalıdır:**

"Dünya erməni terroruna artıq "dur!" deyilməlidir. Terror hadisələrininin baş verməsinə vəsilə olanlar hüquqi müstəvidə cavab verməlidir. Bununla da Ermənistanın həm ölkə, həm də lobbi olaraq, dəstəklədiyi, yaratdığı terror təşkilatlarına birdəfəlik son qoyulmalıdır.

44 günlük Vətən müharibəsində Azərbaycan tarixi qələbə qazanaraq, təkcə Ermənistan üzərində deyil, dünya erməni faşizminə və onun yaratdığı terror təşkilatlarına qalib gəlmiş oldu. Bu gün artıq beynəlxalq ictimaiyyət bununla ciddi mübarizə aparmalıdır. Çünki terror sərhəd tanımır".

*Qeyd edək ki, son vaxtlar Azərbaycan səfirliklərinə basqınlar edilir. Bundan başqa, oktyabrın 10-dan 11-nə keçən gecə Azərbaycanın ABŞ-dakı səfirliyinin xidməti avtomobilinə atəş açılıb. İstisna deyil ki, bütün bunlar erməni terror təşkilatlarının diplomatlara qarşı terror siyasətinin davamıdır. Həmçinin 1970-80-ci illərdə də türk diplomatlarına qarşı sui-qəsdlər törədiblər.*

**Sücayət Mehti**

**"Orta Asiyanın türk respublikaları yaxın zamanda dünya siyasətinin mərkəzlərindən birinə çevriləcək".**



Bu sözləri iqtisadçı Natiq Cəfərli deyib. Ekspert bildirib ki, dünyanın iqtisadi inkişafının "motoru" Asiyaya, Çinə, Hindistana və hər iki dövlətin orbitində olan ölkələrə keçib: "Yaxın 20 ildə iqtisadi mərkəz məhz Hind-Sakit okean hövzəsi olacaq. Yeni modeldə Orta Asiyanın türk respublikalarının üzərinə böyük rol düşür. Onlar körpü, müxtəlif fraqmental lider ölkələr arasında bufer zona rolunda olacaqlar. Həmin ölkələri həm də Rusiyanın gələcək fiaskosuna hazırlamaq lazımdır. Əslində bütün dünya bu gün post-Putin, zəifləmiş Rusiya dönəminə hazırlaşır. Ölkələr onilliklərə hesablanmış "vizion" qurur. Yeni dünyada türk cümhuriyyətlərinin unikal rolunun olması üçün öz aralarında sıx inteqrasiya bağlarının, əsas da dövlətlərarası koordinasiya institutlarının yaradılması çox önəmlidir".

# " Dünya post-Putin, zəifləmiş Rusiya dönəminə hazırlaşır "

## Natiq Cəfərli: "Yeni modeldə Orta Asiyanın türk respublikalarının üzərinə böyük rol düşür"

**N.Cəfərliyə görə, bu missiyada Azərbaycanın unikal mövqeyi ola bilər:** "Orta Asiya türk respublikaları üçün biz Türkiyədən "bir köynək" daha yaxınıq. Türkiyə vacib, önəmli, güclü "oyun qurucu" rolunu gücləndirməli, Azərbaycan isə Orta Asiyanı Türkiyəyə, eləcə də dünyaya bağlayacaq strateji körpü olmalıdır. Azərbaycan Xəzərin o tayında böyük "yumşaq gücə" malikdir. Biz bunu ölkədə yaşayaraq anlamasaq da, Xəzərin o tayı bizə Avropa kimi baxır. Bizi Avropa sayır, bunu doğru dəyərləndirməliyik. Hər şey çox tez dəyişir, dəyişəcək, qlobal dünyadan fraqmental dünyaya keçid baş verir. Bu yeni formatda Türkiyə fraqmental dünyanın yeni regional güc mərkəzi, Azərbaycan isə bu yeni güc mərkəzinin əsas oyunçusu ola bilər. Bunun üçün Türk Dövlətləri Birliyinin (TDB) işlək koordinasiya institutları yaranmalıdır. TDB ərazi olaraq böyük bir coğrafiyadır, əhali olaraq 160 mln.luq bazardır. Bu qurum öz gücünü və nüfuzunu dəqiq hesablaya, doğru dəyərləndirib düzgün strategiya qura bilsə, gələcək fraqmental dünyanın əsas oyun qurucularından biri olacaq. 10-20 il önə baxmağı bacarmaq, gələcəyin təməlini düzgün qoymaq zamanıdır".

**İsmayıl**




# Ölüm halı qeydə alınmayıb

## Son sutkada 18 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 18 yeni yoluxma faktı qeydə alınıb, 19 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, xəstəlikdən ölüm halı qeydə alınmayıb.

İndiyədək ölkədə ümumilikdə 822 617 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 812 247 nəfər müalicə olunaraq sağalıb, hazırda 438 aktiv xəstə var. Bu günə qədər 9 932 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 458, bu günə qədər isə ümumilikdə 7 290 601 test icra olunub.*



# "Bizim təşkilat istəkdən yox, zərurətdən yarandı"

## Umud Mirzəyev: “BAMF təkcə Azərbaycanda deyil, qlobal camеədə sözü, nüfuzu, statusu olan bir quruma çevrilib”

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) 30 illik yubileyi qeyd olundu. 1992-ci ildə dövlət qeydiyyatına alınmış müstəqil beynəlxalq qeyri-hökumət təşkilatı 30 il ərzində böyük və önəmli işlərə imza atıb. Beynəlxalq Avrasiya Mətbuat Fondu əsasən üç istiqamətdə - media və vətəndaş cəmiyyətinin inkişafı, sülhməramlı aksiyalar və konfliktologiya, qaçqınlar, məcburi köçkünlər və icma problemləri istiqamətlərində fəaliyyət göstərir.**

Tərtər, Füzuli və Ağstafa rayonlarında regional ofisləri olan BAMF çoxsaylı layihələr həyata keçirib. Təşkilatın qurucusu və hazırkı rəhbəri Umud Mirzəyevdir. O, eyni zamanda Beynəlxalq Mətbuat İnstitutunun Azərbaycan Milli Komitəsinin rəhbəri, Mətbuat Şurası sədrinin müavini, Yazıçılar Birliyinin üzvü, Milli Qeyri-Hökumət Təşkilatları Forumu idarə heyətinin üzvüdür. Biz də Umud Mirzəyevlə Beynəlxalq Avrasiya Mətbuat Fondunun 30 illik fəaliyyətindən, əldə etdiyi uğurlardan və qarşıda duran vəzifələrdən danışdıq. BAMF sədri ”Şərq”ə açıqlamasında otuz il ərzində sayılmayacaq qədər çox və mühüm işlər gördüklərini vurğuladı. Qurum rəhbəri post-münaqişə dövründə də ciddi layihələrinin olduğunu açıqladı...

**- Umud müəllim, uzun müddətdir rəhbərlik etdiyiniz qurumun fəaliyyətini, uğurlarını necə dəyərləndirərdiniz? Qeyri-hökumət təşkilatı kimi daim aktiv və önəmli fəaliyyət sərgiləməyi necə bacarmısınız?**

- Beynəlxalq Avrasiya Mətbuat Fondu Azərbaycanda ilk vətəndaş cəmiyyəti strukturlarındandır. Xüsusilə qeyd etmək lazımdır ki, BAMF təkcə istəkdən yox, həm də zərurətdən yaranıb. 1990-cı illərin əvvəllərində Azərbaycan böyük problemlər içindəydi, informasiya müharibəsi içində idi. Mövcud gərginliklər içərisində belə bir qurumun formalaşmasına çox böyük ehtiyac var idi. Elə bir qurum olmalıydı ki, ən azından ölkədəki və regiondakı problemlərin işıqlandırılması üçün mümkün olan bütün variantlardan istifadə edə bilsin, konfliktlərin, münaqişələrin qarşısının alınmasına yardımçı olsun. O dövrdə postsovet məkanında bütün informasiyalar Kremlin filtrindən keçdikdən sonra ictimailəşirdi. Biz isə düşünürdük ki, insanları regionlara dəvət etmək, onlara həqiqətləri əyani şəkildə göstərmək daha faydalıdır. Həmin adamlar burada gözləri ilə gördüklərini öz ölkələrində gündəmə gətirər, bu məlumatların həmin ölkələrdə yayımlanmasına dəstək göstərərlər. Bu yolla müəyyən uğurlar əldə etmiş olarıq. Beləcə, BAMF-nin meydana çıxması dövrün zərurətindən irəli gəlmişdi. Qurumun 30 illik fəaliyyəti ilə bağlı Təşkilat Komitəsi olaraq kitab və film hazırlamağı düşünmüşdük. Amma gördük ki, qeyri-təvazökarlıq olsa da, arxivdəki materiallarımızı 50 cildlik kitaba belə sığışdırmaq qeyri-mümkündür. Arxada dopdolu uğurlu bir fəaliyyət var. BAMF təkcə Azərbaycanda deyil, qlobal camеədə sözü, nüfuzu, statusu olan bir quruma çevrilib. 10 ildən çoxdur ki, biz BMT-nin Baş Qərargahında, Cenevrə ofisində mütəmadi tədbirlər keçiririk. Çoxsaylı tərəfdaşlarımız var. Üzvü olduğumuz, uzun müddət işlədiyimiz əksər beynəlxalq təşkilatlarla əməkdaşlıq təcrübələrimiz var. 2012-2016-cı illər ərzində təşkilat rəhbəri olaraq Beynəlxalq Mətbuat İnstitutunun Direktor Şurasının üzvü olmuşam. Beynəlxalq Sülh Bürosunun Qərb ölkələri üzrə Ali Şurasının təmsilçisi olmuşam. Təşkilatımız qaçqınlar, sığınacaq axtaranlar üzrə Avropa Şurasının, ABŞ-ın Dövlət Departamentinin özəl tərəfdaşlıq proqramının üzvüdür. Çoxsaylı layihələrə imza atmışıq.

> “Qeyri-təvazökarlıq olsa da, arxivdəki materiallarımızı 50 cildlik kitaba belə sığışdırmaq qeyri-mümkündür”

**- Sadəcə, media sahəsində deyil, bir neçə fərqli istiqamətlərdə fəaliyyət göstərmək qərarına necə gəldiniz?**

- BAMF media qurumu kimi ilkin fəaliyyətə başlasa da, qeydiyyata alındıqdan sonra daha çox qaçqınlar, məcburi köçkünlər, konfliktlər bölgəsində fəaliyyət göstərdiyimiz üçün humanitar səpkili layihələrə keçid aldıq. Ötən dövr ərzində təxminən 5 istiqamət üzrə çox ciddi layihələrə imza atmışıq. Media, vətəndaş cəmiyyəti qurumları, sülhməramlı askiyalar, qaçqın və məcburi köçkünlər, icmanın inkişafı və təhsillə bağlı önəmli layihələr həyata keçirmişik. Bu istiqamətlərdə olduqca mühüm proqramları reallaşdırmışıq və prosesə davam edirik. Qeyd edim ki, BAMF BMT-nin ən yüksək statusunu qazanmış üzvüdür. BMT ilə əməkdaşlıq edən təqribən 34 mindən yuxarı qeyri-hökumət təşkilatları var. Onların sadəcə 130-dan çoxu ”general status”a malikdir. Əlbəttə, uğurlarımız böyük çətinliklər bahasına başa gəlib. Ən vacibi odur ki, Qarabağın işğalı zamanı yaradılmış bu Fondun nizamnaməsində əsas məqsədi keçmiş münaqişə bölgələrinə, konflikt zonalarına jurnalistlərin, diplomatların səfərlərini təşkil etmək olub. Yəni ana məsələmiz Qarabağ probleminin həllinə dəstək olmaq idi. Fəxr edirəm ki, 30 il ərzində Qarabağ probleminin çözülməsində qətiyyən fasiləsiz dayanmadıq, gecə-gündüz çalışdıq. Media qurumu olaraq, humanitar təşkilat olaraq fəaliyyət göstərdik. 44 günlük müharibənin gedişində, möhtəşəm Zəfərə gedən yolda bizim də qatqımız oldu. Təbii ki, buna görə çox qürurluyuq. 2020-ci il sentyabr ayının 27-dən noyabrın 7-dək dünyanın ən böyük media holdinqi olan ”Əl-Cəzirə” televiziyasını müşayiət etdik. Ön cəbhədə gündəlik reportajların hazırlanıb telekanalda yayımlanmasında bilavasitə iştirakçı olmuşuq. Bir çox qurumlara da bələdçilik etmişik ki, müharibə ilə bağlı obyektiv mövqe sərgiləsinlər.

**- İndiki post-münaqişə dövründə beynəlxalq əməkdaşlıq, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması nə qədər önəmlidir?**

- Bu məsələlərə ehtiyac böyükdür. Qeyd olunan istiqamətlərdə fəaliyyətimizi genişləndirmək olduqca vacibdir. Oktyabrın 15-də qurumumuzun təşkilatçılığı ilə 16 nəfərlik heyətlə Füzuliyə, Edilliyə səfər etmişdik. Azərbaycana gəlmiş əcnəbi jurnalistlərin, beynəlxalq təşkilatların təmsilçilərinin bi qrupunu Edilliyə aparmışdıq. Ötən gün Şuşada olmuşuq. Hesab edirik ki, bu cür məsələlərin təşkili davamlı olmalıdır. Bugünədək onlarla jurnalist səfərlərini təşkil etmişik. Zəngilana, Qubadlıya, Füzuliyə, Şuşaya, Kəlbəcərə səfərlər olub. Bunların hamısı beynəlxalq media qurumlarının səhifələrində əks olunub. Həmçinin, Azərbaycan həqiqətləri ilə bağlı çoxsaylı məqalələrin, reportajların hazırlanmasında yardımçı olmuşuq. Əlbəttə, görəcəyimiz daha böyük işlər qabaqdadır. BAMF komandası bir an olsun belə dayanmaq fikrində deyil. Gücümüz, imkanımız daxilində bacardığımızı edəcəyik. Elə bizim fərqliliyimiz də ondadır ki, heç kəsdən hansısa yardım, dəstək, təlimat gözləmirik. Qurumun özünün bəlli fəaliyyətə strategiyası, planları, hədəfləri var. Biz bu cür fəaliyyəti özümüzün vətəndaş borcu hesab edirik.

**İsmayıl Qocayev**

# "Qurbanları arasında tanıdığım insanlar və ailələr də var"

## Gəncə terrorunun şahidi “Şərq”ə danışdı



**İkinci Qarabağ müharibəsi dövründə Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən 5-ci dəfə raket hücumuna məruz qalmasından iki il ötür. 2020-ci ilin oktyabrın 17-də gecə saat 01 radələrində düşmən növbəti dəfə cəbhə zonasından kənarda yerləs?ən, Azərbaycanın ikinci bo?yu?k s?əhərinin mərkəzindəki Cavadxan qəsəbəsini SCUD/Elbrus əməliyyat-taktiki ballistik raketləri ilə atəs?ə tutub.**

Hücumu zamanı yaşayış evləri tamamilə dağılıb, sakinlər dağıntılar altında qalıb. Nəticədə 16 nəfər şəhid olub, 55-dən artıq şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Şəhid olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da var.

**Bu hadisənin erməni xislətinin bariz nümunəsi olduğunu deyən Missiya Media Qrupunun baş direktoru, tanınmış jurnalist Nicat Dağlar ”Şərq”ə bildirib ki, bir gəncəli kimi o da bu vəhşiliyin canlı şahidi olub:**

”Həmin hadisələri bugünkü kimi xatırlayıram. Bu terrorun qurbanları arasında tanıdığım insanlar və ailələr də var. Təbii ki, Gəncə terroru, ermənilərin Azərbaycan xalqına qarşı vəhşiliyinin ilk nümunəsi deyil. Onlar bizə qarşı müxtəlif soyqırımları törədiblər. Gəncə hadisələri zamanı da onların yeganə məqsədi dinc əhalini hədəfə almaq idi.

Çünki bu şəhər cəbhə xəttindən xeyli uzaqda yerləşir. Bu gün isə ermənilərin törətdiyi vəhşilikləri dünya və beynəlxalq arenaya göstərmək üçün müəyyən addımlar atılır. Eyni zamanda ictimai fəallar, QHT-lər və media resursları da üzərlərinə düşəni etməyə çalışırlar.

Xarici qonaqlara hadisənin çatdırılması və beynəlxalq qurumlara ünvanlanan məktublar da bizə lazım olan məqsədə xidmət edir. Təəsüf ki, bu gün də dünya öz ənənəvi prinsiplərindən əl çəkmir və bizə qarşı qərəzli mövqeyi davam etdirir.

Onlar Ukrynada sərgilədikləri mövqenin yarısı qədər belə Gəncə terroruna münasibət bildirmədilər. Amma unudulmamalıdır ki, Gəncədə həlak olanlar hərbçilər yox, məhz qadınlar, uşaqlar və dinc sakinlər idi”.

Həmkarımız vurğulayıb ki, bu hadisələrin dünyaya çatdırılması ilə bağlı səylərimizi 2 qat artırmalıyıq:

”Bu günə qədər edilənlərlə kifayətlənmək olmaz. Biz dünyanın münasibətini nəzərə alaraq, hərəkətlərimizi planlaşdırmalıyıq. Belə hadisələri beynəlxalq arenaya çıxarmaq üçün müxtəlif yollar var. Bunlardan biri də bədii üsuldur ki, burada filmlərin xüsusi rolunu qeyd etmək olar. Gəncə terrorunun və digər erməni vəhşiliklərini film halına gətirərək kino festivallarına çıxarmaq çox gözəl təşəbbüs olardı.

Bununla da biz 2-ci Qarabağ müharibəsindəki gerçəkləri ortaya çıxarmış olacağıq. Digər tərəfdən bu terrorun qurbanlarının xatirəsinə abidə ucaltmaq da olar ki, bununla bu hadisə heç vaxt unudulmasın və gələn qonaqlar öz gözləri görsünlər”.



**Nihat Müzəffər**

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet
18 oktyabr 2022-ci il (çərşənbə axşamı) www.sherg.az




# "Yaşının bu çağında Əkrəm Əylisli gərək səmimi olaydı"

## Seyran Səxavət: "Adam birdəfəlik çıxıb demir ki, bu romanı Nobel mükafatı üçün yazmışdım"

**Ədəbi mühitdə, mədəni həyatımızda son günlər bir neçə diqqətəlayiq hadisə baş verib. İki kitab sərgisi keçirildi. Biri, İV Milli Kitab Sərgisi, ikincisi, Beynəlxalq Kitab Sərgisi. Azərbaycan Yazıçılar Birliyinin çoxdandır gözlənilən növbəti qurultayının vaxtı, məkanı dəqiqləşdi. Görkəmli bəstəkar, əzizimiz Cavanşir Quliyev "Müşfiq ağıları" əsərini təqdim etdi... Başqa bir hadisə: bu günlərdə hardansa xəbər yayılıb ki, Şuşada Molla Pənah Vaqifin abidəsi ucaldılacaq, indi əsas müzakirə mövzusu məhz budur.**

Ədəbi mühitdəki bu canlanmanı xarakterizə etməsi üçün yazıçı-dramaturq Seyran Səxavətə üz tutduq. İlk sualımız da Vaqiflə bağlı oldu. Amma əziz Seyran müəllimin ürəyindən olmadı sual. Yox, əsəbiləşmədi, amma müzakirələri yersiz hesab edən Seyran müəllim, özünəməxsus tərzdə, yerli-yataqlı cavab verməkdən də yayınmadı, hətta bizə - mediaya irad da bildirdi:

- Kimlərsə etiraz edirsə ki, Molla Pənah Vaqifin Şuşada heykəli qoyulmasın, siz, "Şərq" qəzeti, eləcə də başqaları, saytlar, niyə bunu bir az da ictimailəşdirirsiniz, niyə gündəmdə saxlayırsınız? Bu cür məntiqsizliyə niyə cavab verilməlidir? Hər şeyə reaksiya vermək, onların varlığına diqqət yetirməkdir. Makron bir söz deyir, 10 gün onun müzakirəsi aparılır. Bizim başqa problemimiz yoxdu?!. Şuşada abidəsinin qoyulması Vaqifin halal haqqıdır. Bunu müzakirə etməyin özü haqsızlıqdır. Şuşada Vaqifin məqbərəsinin olması absalutdur!

*(Dəyərli yazıçımızın, şübhəsiz, mexaniki olaraq, abidə əvəzinə, məqbərə dediyinə əmin olduğum halda, guya ki, o boyda dramaturqun səhvini düzəldirmişəm kimi "məqbərə yox e, Seyran müəllim, abidə" dedim, çünki Seyran Səxavətin nəsə bir şirin ifadə işlədəcəyinə də əmin idim)*

- Karıxdım. Karıxmaq da mənim haqqımdı... Abidə olsun. Sizdən soruşuram, niyə də qoyulmasın?!

**- Seyran müəllim, Vaqifə abidə məsələsi "yaddaşda" qalsın, Makronu deyim, yadımdan çıxmamış...**

- Buyur...

**- Deyirsiz, Makronun çıxşı, dediyi bir söz niyə bu qədər müzakirə olunur, yəni niyə onun hər sözünün başına ip salırlar? Axı hamımız bilirik ki, Makronun dediyi söz gələcəyə hesablanıb. Bu gün onun cavabı verilməsə, sabah o sözün altından başqa hadisələr çıxacaq. Cavabı verilməsin?**

- Makronla bağlı dediklərin düzdü. Razıyam. Mən özüm Makronun cavabını ən sərt şəkildə efirdə vermişəm. Fransanın bizə münasibəti ənənə xarakterlidir. Makron da küçə təfəkkürü ilə hərəkət edən adamdı. Kiminsə tərəfini saxlamasını açıq nümayiş etdirir. Bu, siyasət deyil, siyasi xadimə də heç uyğun deyil.

**- Yadınızdadı, AYB sədri, Xalq yazıçısı Anar cənab Prezident Şuşaya səfər edəndə...**

- Hə, Anar müəllim dedi ki, istəyirik yazıçıların qurultayını Şuşada keçirək, Prezident də dedi, lap yaxşı, keçirin...

**- Bəs niyə olmadı, səbəbini bilirsiz?**

- Anar müəllim özü açıqlama verib bu haqda, deyib ki, qurultay iştirakçıları, qonaqlar çox olacaq, orda uyğun şərait yoxdur. Bakıda keçiriləcək qurultay. Azərbaycan Akademik Milli Dram Teatrının binasında. Bakı paytaxtdır, Bakı da mədəniyyət mərkəzidir.

**- Sədrliyə başqa namizədlər də ola bilər? Açıq səsvermə keçirilir, ya necə?**

- Bəli, açıq səsvermə olur. Birlik üzvləri mandatlarını qaldırmaqla münasibətlərini bildirirlər.

**- Seyran müəllim, sizdən üzr istəyərək, Vaqiflə bağlı müzakirələrin istiqamətini deyim. Müzakirələr nə Vaqifin şəxsiyyəti, nə də şairliyi, poeziyası ilə bağlıdır. Vaqifin ədəbiyyatımızdakı yeri müzakirə predmeti deyil. Müzakirə olunan, Qarabağ xanlığının vəziri, indiki deyimlə xarici işlər naziri olan Molla Pənah Vaqifin Rusiyaya meylliliyi, Rusiya himayədarlığı tərəfdarı olması, bu fəaliyyətin nəticəsi olaraq da Qarabağ xanlığının Çar Rusiyasının tabeliyinə keçməsidir. Etiraz edənlər də bunu əsas gətirərək, Qarabağda erməni vəhşiliyinin qarşısının alınması məqsədilə "Difai" təşkilatını yaradan Əhməd bəy Ağaoğlunun, daşnaklara qan udduran Xosrov bəy Sultanovun və sair bu kimi siyasi-ictimai xadimlərin abidələrinin qoyulmasını təklif edirlər.**

- Olsun. Əhməd bəy Ağaoğlu böyük şəxsiyyətdir. Ona da abidə qoysunlar. Xosrov bəyə də qoysunlar. Vaqifə də qoysunlar! Bu mübahisənin nöqtəsini belə qoymaq olar: Vaqifin abidəsinin postamentində "bu abidə Qarabağ xanlığının vəziri Vaqifə deyil, şair Vaqifin şəninə ucaldılıb" yazılsın, bununla da müzakirələrə, narazılıqlara nöqtə qoyulsun.

## "Şuşada abidəsinin qoyulması Vaqifin halal haqqıdır"

**- Siz lap əla təklif irəli sürdünüz.**

- Sözümün canı odur ki, xırdalığa getmək olmaz. Əgər belə bir fikir, ideya varsa, onsuz da o abidə qoyulacaq. Bizim istəyimizlə deyil. Qaldı ki, təmiz Azərbaycan dilində şeirlər məhz Vaqiflə durula-durula gəlib. Başqa sualın var?

**- Yaxşı, Seyran müəllim, Vaqif mövzusunu bitirdik. Yazıçılar Birliyinin qurultayına necə hazırlaşırsınız?**

- Hamı necə, mən də elə.

**- Seyran müəllim, Yazıçılar Birliyinin ötən illərdəki qurultaylarından yadda qalanı olubmu sizin üçün?**

- Bizim qurultaylar həmişə maraqlı, yaxşı mənada səs-küylü olur. Yazıçıların qurultayının əsas üstünlüyü bir də budur ki, bizim qurultay bir gün olar. Kommunist Partiyasının qurultayları kimi 7 gün - 7 gecə çəkmir. Bizim qurultaylarda yazıçılar sərbəst olur, qəlblərindən keçəni deyirlər, danışırlar. Partiya qurultaylarında kim buna cürət edərdi? Adamın dilini dartıb dilçəyindən çıxarardılar. Sovet vaxtı da yazıçıların qurultayları partiya qurultaylarından fərqli olurdu. Qardaş respublikalardan qonaqlar gəlirdi. Məsələn, ötən qurultayda Oljes Süleymanov qonaq gəlmişdi. Onu türk dünyasının böyük oğlu adlandırırlar. Böyük insandı, böyük yazıçıdı. Buna sözüm yoxdu. Amma bu "türk dünyası" ifadəsindən xoşum gəlmir. Dünya bir dənədi də! Bunu niyə türkə, slavyana, avropalıya bölək?! Dünyanı "mikrorayonlara" bölmək lazım deyil.

**- Seyran müəllim, bir neçə gün əvvəl 8-ci Beynəlxalq Kitab Sərgisi başa çatdı, Bakı Ekspo Mərkəzində. Ondan əvvəl də Bakı İdman Sarayında İV Milli Kitab Sərgisi keçirilmişdi. Birinin təşkilatçısı "Qanun" Nəşrlər Evi idi. Digərinki Mədəniyyət Nazirliyi. Şəxsən məndə belə təəssürat yarandı, sanki kitab sərgiləri də iqtidar-müxalifət cəbhəsinə ayrılıb...**

- Kaş 2 yox, 3, 4... olsun. Çox olsun... Heç bir ziyanı yoxdu. Şahbaz Xuduoğlu mənə zəng etdi ki, istəyirik, sizinlə imza günü təşkil edək. Bilirsən, mənim oxucum, öz qohum-əqrəbamdı. Yəni mən oxucularımı öz qohum-əqrəbam sayıram. Bir də görürsən, biri oğlunu evləndirir, üstündən 1-2 il keçəndən sonra təzədən toy eləyir. Əvvəlcə toya gələnləri bir də çağırır. Daha kimi çağıracaq ki?!. Elə həmin qohum-əqrəbadı da!.. İndi mən də, bir neçə il əvvəl kitabımın təqdimatı keçirilib, imza günü olub, oxucularım gəlib, kitab alıblar, kitab imzalamışam, indi bir də həmin adamları çağırım ki, gəlin kitablarımı alın?! Bu, düz olmaz axı. Amma Ekspo Mərkəzdəki kitab sərgisinə hər gün gedirdim. Heç istəmirdim ki, bu sərgi bitsin. Elə bilirdim hər gün işə gedirəm. İnsanın həyatda gedib-gəldiyi 2 əsas yer var - biri evdi, biri də iş. Ekspo Mərkəzdəki kitab sərgisi mənim üçün iş yeri idi. Evimizin də yolunun üstündədi (Mərdəkan yolu - M.R.), hər gün gedirdim. Dostlarla görüşürdüm, söhbət edirdik. Öz-özümə deyirdim, kaş bu sərgi qurtarmayaydı. Kaş dünya kitab sərgi salonuna oxşayaydı. Amma dünya kitab sərgi salonuna heç vaxt bənzəməyəcək... Mədəniyyət Nazirliyi çox böyük iş gördü. Mədəniyyət nazirini də görürdüm orda, təkbaşına gəzirdi. Akif Maarifli də sağ olsun, çox gözəl təşkil olunmuşdu sərgi. Möhtəşəm idi. Ayrılmaq istəmirdim. Özünü öymək olmasın, orda bəlkə 200-300 şəkil çəkdirmişəm oxucularla, iştirakçılarla.

"Ən böyük kişilik etiraf etməkdir. Tarixə adını yazmış şəxsiyyətlər etiraf etməyi bacardıqları üçün tarixdə qalıblar. Makedoniyalı İsgəndərdən, Teymurdan üzü bəri hamısı..."



**- Seyran müəllim, İV Milli Kitab Sərgisinə Əkrəm Əylislinin dəvət olunması da mübahisələrə səbəb oldu. Sizin fikriniz nədi? Dəvət edilməliydimi?**

- Mənə bir dəfə müxbir zəng elədi, Əkrəm Əylisli haqqında sual verdi. Soruşdum ki, hansı Əkrəm Əylislini deyirsiz? Duruxdu ki, necə hansı? Neçə Əkrəm Əylisli var ki? Dedim, mənim üçün 2 Əkrəm Əylisli var. Biri "Daş yuxular"dan əvvəlki, biri də sonrakı. İndi mən də soruşuram, Milli Kitab Sərgisinə hansı Əkrəmi dəvət etmişdilər? Mən orda "Daş yuxular"dan sonrakı Əkrəmi gördüm. Və bu Əkrəm Əylisli qeyri-səmimi idi. Hətta bu yaşında da. Müsahibə verir və deyir ki, "mən "Daş yuxular"ı ona görə yazdım ki, ermənilər azərbaycanlıları sevsin". Belə məntiqsiz cavab, belə məntiqsiz yanaşma olar? Bilirsiz də, "Daş yuxular"da biz azərbaycanlılar haqqında nələr yazılıb, əgər oxumusunuzsa...

**- Bəli, bilirəm.**

- Azərbaycan xalqının o cür təqdimatından sonra hansı ermənidə azərbaycanlıya qarşı sevgi yarana bilər?!. Bu adam birdəfəlik çıxıb demir ki, bu romanı Nobel mükafatı üçün yazmışdım. Allah eləməsin, mən bunu yazmış olsaydım, etiraf edərdim ki, Nobel mükafatı almaq istəyirəm, dünyada "tanınmaq istəyirəm", ona görə, yazmışam. İnsanıq da, hərənin bir arzusu, istəyi ola bilər. Məsələ burasındadır ki, Əkrəm hələ də etiraf etmir. "Daş yuxular"la bağlı hamı Əkrəmin üzərinə gedirdi. ANS telekanalında "Üz-üzə" proqramı vardı, yadınıza gələr, o proqramda "Daş yuxular" müzakirə edildi, məni dəvət etmişdilər, opponentim də Çingiz Qənizadə idi. Mən orda Əkrəmi müdafiə etdim. Bəlkə də Əkrəm Əylislini müdafiə edən yeganə adam mən olmuşam. Amma o da gərək səmimi olaydı, əsəri hansı məqsədlə yazdığını etiraf edəydi. Əkrəm qınaqlardan yayınmaq üçün, deyir, guya əsəri rus dilində yazıb, tərcümədə yanlışlıqlar olub. Kim bilməsə də, biz yazıçılar Əkrəmin bədii əsəri rus dilində yazacaq səviyyəsinin olmadığını bilirik. Hə, Anar yaza bilər. Amma Əkrəmlik deyil bu iş.

**- Seyran müəllim, deyirsiz, etiraf etsin? Nəyi? Bəlkə, ürəyindən keçənləri yazıb? Məqsədsiz-filansız...**

- Bunu da etiraf etsin də! Çıxsın, kişi kimi, desin, bəli, bu, mənim düşüncəmdi, mən belə düşünürəm, istədiyimi də yazmışam. Demir axı. Gah deyir, tərcümə düzgün edilməyib, gah deyir, romanın ikinci hissəsi var... "Mən "Daş yuxular"ı ona görə yazdım ki, ermənilər azərbaycanlıları sevsin", nə deməkdi?!. Ən böyük kişilik etiraf etməkdir. Tarixə adını yazmış şəxsiyyətlər etiraf etməyi bacardıqları üçün tarixdə qalıblar. Makedoniyalı İsgəndərdən, Teymurdan üzü bəri hamısı... Əkrəm Əylisli öz yazdığı əsəri müdafiə edə bilmədi, çünki etiraf edə bilmir. Heç olmasa, yaşının bu çağında səmimi olaydı!

**- Sonda Seyran müəllim, icazənizlə Qarabağa qayıdaq. Füzuliyə, doğma kəndinizə getmisiniz?**

- Füzuli işğaldan azad olunandan 3 gün sonra getdim, sonra yenə getmişəm. Bizim jurnalistlərin "sevimli" sualı var, torpağımız işğaldan azad olunanda zəng edib soruşurdular "hansı hissləri keçirirsiniz?". Bax, bu nə sualdı? İnsan doğma yurdu, doğma kəndi, atababa yurdu azad olunanda hansı hissləri keçirə bilər, sizcə?!. Dedim ki, mənim hisslərim 30 ildi donub. 3 gündə donum açıla bilər? Hələ indi yavaş-yavaş donum açılır...

Söhbətləşdi: Məlahət Rzayeva

# Səfirliklərimizə hücumlar sistemli xarakter alıb

## Türkiyə dövləti və diasporası ilə koordinasiyalı şəkildə ermənilərə qarşı mübarizəni daha da artırmalıyıq



İsmayıl Qocayev

**Son zamanlar xarici ölkələrdəki erməni icmalarının radikal üzvləri tərəfindən Azərbaycanın diplomatik nümayəndəliklərinə qarşı hücumlar sistemli xarakter alıb. Vaşınqton, Paris, Beyrut və digər şəhərlərdə səfirliklərimizə qarşı törədilən hücumlar, vandallıq aktları ciddi narahatlıq doğurur.**

Şübhəsiz, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizin təhlükəsizliyinin təmin edilməsi ev sahibi ölkəsinin beynəlxalq konvensiya ilə üzərinə götürdüyü öhdəliyidir. Əfsuslar olsun ki, bir sıra Qərb ölkələri qanuni öhdəliklərinə əməl etməkdə laqeydlik nümayiş etdirirlər. Xatırladırıq ki, Ermənistan 1991-ci ildə müstəqilliyini bəyan etdikdən sonra Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək məqsədi ilə terroru dövlət siyasəti vasitəsinə çevirib. Azərbaycanın ərazilərinin işğalı prosesində ölkəmizin müxtəlif yerlərində terror vasitələrindən geniş istifadə ediblər. Habelə Bakı şəhərində terror aktları törədiblər. Ancaq 2020-ci ildə Avropa paytaxtlarında, habelə Los-Anceles şəhərində Azərbaycan diplomatik nümayəndəliklərinə, həmçinin azərbaycanlı icma üzvlərinə qarşı edilən hücumlarla bağlı açılan cinayət işləri çərçivəsində heç bir təqsirkar məsuliyyətə cəlb edilməyib. Məhz bu cəzasızlıq radikal erməni qruplarını yeni təxribatlara əl atmağa cəsarətləndirib. Dünyaya özlərinin "soyqırıma" məruz qaldığını bəyan edən ermənilər 1973-cü ildən etibarən yenidən Türkiyə diplomatlarını hədəf almağa başlayıblar. ASALA (Erməni gizli ordusu), "Erməni Soyqırımı Ədalət Komandoları", "Erməni İnqilab Ordusu" terror təşkilatları onlarla diplomatı öldürsə də, terrorçuların çoxu yenə də cəzasız qalıb. Ümumilikdə, erməni terror təşkilatları 1970-ci ildən indiyədək xaricdə yaşayan türklərə qarşı etdikləri sui-qəsdlər nəticəsində 31-i diplomat və onların ailə üzvləri olmaqla, ümumilikdə 58 Türkiyə vətəndaşı qətlə yetirilib.

**Tarixçi-alim Faiq Ələkbərli "Şərq"ə deyib ki, son aylarda Azərbaycanın əldə etdiyi hərbi uğurlar, Türkiyənin regionda və dünyada söz sahibinə, real siyasi-hərbi gücə çevrilməsi erməniləri və onların havadarlarını ciddi narahat etməyə başlayıb. Onun sözlərinə görə, ermənilər çıxış yolunu yenidən aktivləşməkdə görürlər:** "Ermənilər Türkiyə və Azərbaycana qarşı törədilən təxribatlarda tək deyillər. Bakı-Ankara tandemindən narahat olan, qorxuya düşən dairələr də ermənilərə dəstək verirlər, şərait yaradırlar. Livanda, Fransada səfirliklərimizə təxribatlar, ABŞ-dakı diplomatik korpusumuza məxsus avtomobilin atəşə tutulması təsadüfi deyil. Müxtəlif güclər erməni terrorçularını, radikallarını yenidən gündəmə gətirməyə cəhd edir. 1970-ci illərdə bunu erməni terror təşkilatı ASALA vasitəsi ilə həyata keçirirdilər. İndi də təxminən bənzər şəkildə erməni lobbisi, radikal-cinayətkar dəstələr də Azərbaycan təmsilçilərinin həyatına təhlükələr yaratmağa çalışırlar. Ermənilərin yenidən açıq-aşkar terror aktlarına əl atmasını ciddiyə almaq lazımdır. Ancaq bu, o anlama gəlmir ki, biz geri çəkilməliyik. Əksinə, Türkiyə dövləti və diasporası ilə koordinasiyalı şəkildə ermənilərə qarşı mübarizəni daha da artırmalıyıq. BMT səviyyəsində, digər beynəlxalq təşkilatlar müstəvisində erməni terrorunu gündəmə gətirməliyik. Çünki bizə qarşı təzyiqlərin artması göstərir ki, Azərbaycan və Türkiyə ən doğru yoldadır, haqq yolundadır. Ermənistanın əli Rusiyadan üzülüb, hazırda Avropa və ABŞ-dan yardım, dəstək dilənməklə məşğuldur. Çarəsiz və çıxılmaz vəziyyətdə qaldıqları üçün baş vurduqları yollardan biri də terrordur".



# Ermənistanın müharibə cinayətləri

## Praqada sərgi-aksiya təşkil edilib



**Çexiyanın paytaxtı Praqada II Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin törətdiyi müharibə cinayətlərinə həsr olunmuş sərgi-aksiya keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən "Şərq"ə verilən məlumata görə, Böyük Karl körpüsü qarşısındakı Krizovnişka Namesti meydanında baş tutan sərgi-aksiya "Elson Grand" təşkilatının üzvü, Azərbaycan diasporu fəalı Fərid Əmirəliyevin təşəbbüsü və təşkilatçılığı ilə gerçəkləşdirilib.

Sərgi-aksiyada Ermənistan silahlı qüvvələrinin iki il öncə Azərbaycanın Gəncə, Naftalan, Bərdə, Tərtər, Mingəçevir və digər şəhərlərinə raket hücumları nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxsin həlak olduğunu, 454 nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri aldığını əks etdirən fotomateriallar nümayiş etdirilib.

Fotomateriallar "Erməni silahlı qüvvələri təkcə Azərbaycan hərbi qulluqçularına qarşı deyil, həm də Azərbaycanın mülki vətəndaşlarına qarşı misli görünməmiş qırğınlar törədib!", "Gəncə şəhəri üçün dua et!", "İnsanlıq haradadır?", "O, sənin övladın ola bilərdi!", "Bərdə üçün dua et!" və başqa şüarlarla təqdim olunub. Qarabağ separatçılarının lideri Arayik Arutyunyanın "Mən Gəncənin bombardman edilməsi əmrini verdim" etirafına diqqət cəlb edilib.

Aksiya ilə maraqlanan paytaxt sakinlərinə Ermənistanın müharibə cinayətləri barədə ətraflı məlumat verilib.

# Ağ Ev "düyməni basdı"

## İranda küçə iğtişaşları nəzarətdən çıxa bilər

Günəş Mərd

**ABŞ İrandakı etirazları dəstəklədiyini və etirazçılara dəstək vermək üçün addımlar atdığını bəyan edib. Bu barədə ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan bildirib.**

C.Sallivan qeyd edib ki, Ağ Ev ilk növbədə, etirazçılara qarşı repressiyalardan istifadə edən, onların döyülməsini və öldürülməsini təşkil edən qəddar İran hökumət rəsmilərini məsuliyyətə cəlb etməyə çalışır.

**Məsələni "Şərq"ə şərh edən analitik Elçin Xalidbəylinin sözlərinə görə, bu, ABŞ-ın rəsmi Tehranın son davranışlarına verdiyi cavabdır:** "Ağ Ev İrandan Rusiyaya hərbi texnika satmamağı tələb edib. Rəsmi Tehran da bir neçə dəfə İranın Rusiyaya silah-sursat vermədiyini bəyan edib. Ancaq son vaxtlar Rusiyanın Ukrayna şəhərlərinə, xüsusilə də paytaxt Kiyevə endirilən hava zərbələri tamamilə fərqli mənzərə ortaya çıxardı. Rusiya tərəfindən həmin hava zərbələrinin məhz İran istehsalı olan PUA-lar və kamikadze-dronlar vasitəsilə endirildiyi məlum oldu. Rəsmi Kiyev hətta son bir gün ərzində İran istehsalı olan 26 hərbi hava obyektinin vurulduğunu bildirib. Yəni İranın Rusiyaya hərbi texnika satması savaş meydanında ortaya çıxan dəlillər ilə təsdiqlənib. Ona görə də ABŞ bütün bunlardan İrana qarşı təzyiqləri artırmaq üçün istifadə etməyə çalışır".

> "Narazı kütlə əhalinin ABŞ və Qərbdən ciddi dəstək alacağı təqdirdə, İran hökuməti üçün həlledici mərhələ başlayacaq"



**E.Xalidbəyli bildirib ki, böyük ehtimalla Ağ Ev yaxın vaxtlarda İrana qarşı beynəlxalq sanksiyaların genişləndirilməsinə də cəhd göstərə bilər:** "Hətta İranın beynəlxalq izolyasiyasının dərinləşdiriləcəyi də qətiyyən istisna deyil.

Ona görə də ABŞ-ın İranda kütləvi etiraz aksiyalarına dəstək verməsi qətiyyən gözlənilməz xarakter daşımır. Ancaq hələlik Ağ Evin etirazlara dəstək vermək üçün hansı addımları atdığı dəqiq məlum deyil. Böyük ehtimalla ABŞ-ın etirazçılara dəstəyi İranda daxili xaosu dərinləşdirə və küçə iğtişaşlarını nəzarətdən çıxara bilər.

Bu baxımdan, ABŞ-ın İranda kütləvi etiraz aksiyalarına dəstək bəyanatı real addımlarla müşayiət olunarsa, bu o deməkdir ki, rəsmi Tehranı olduqca çətin dövr gözləyir. Ölkədaxili durumdan ciddi şəkildə narazı olan əhalinin ABŞ və Qərbdən ciddi dəstək alacağı təqdirdə, İran hökuməti üçün həlledici mərhələnin başlaya biləcəyi qətiyyən istisna deyil. Ancaq onu da nəzərə almaq lazımdır ki, Ağ Evin bəyanatları və vədləri bəzi hallarda ABŞ-ın real davranışları ilə uzlaşmır.

Yəni bu məqamda onun dəstək bəyanatının hansı hədəflərə hesablandığını dəqiqləşdirmək üçün atılan addımların nədən ibarət olduğunun bəlli olması da vacibdir".



İsmayıl Qocayev

# İranın əzələ nümayişinə cavab gecikməyəcək

## Azərbaycan da Türkiyə ilə İran sərhədində təlimlər keçirəcək

**İran ordusu, SEPAH-ın quru qoşunları Azərbaycanla həmsərhəd bölgədə, Araz çayı boyunca təlimlərə başlayıb. Hərbi təlim çərçivəsində helikopter və PUA-ların istifadəsi ilə əməliyyatların, gecə hücumu, çay üzərindən keçid və kommunikasiyaların ələ keçirilməsi kimi tapşırıqların yerinə yetiriləcəyi deyilir.**

Diqqətçəkən məqam Araz çayı üzərindən körpünün inşa edilməsinin də təlimə daxil edilməsidir. Ekspertlərə görə, bu, sərhədə toplanan ordunun Araz çayı üzərindən Azərbaycan ərazisinə keçə biləcəyinin mesajı, eyni zamanda, inşa ediləcək körpü, yaxud körpülər üzərindən keçərək, müdaxilə edə biləcəklərinə işarədir. Yəni molla rejimi açıq şəkildə Azərbaycanı təhdid edir. Bəzi analitiklərin fikrincə, Araz çayı boyunca Azərbaycan-Türkiyə birgə təlimlərinin keçirilməsi bu təhdidlərə tutarlı cavab olardı.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, İranın öz sərhədləri daxilində təlimlər keçirməsi onun haqqıdır, lakin təlimləri Azərbaycana qarşı hədələrin müşayiət etməsi Tehranın mətləblərindən xəbər verir. Ekspertə görə, “qüdrətli İran” adlı hərbi məşqlərin məqsədi və verdiyi mesajları Tehranın təhlükəsizlik qayğılarından çox, onun əlindən çıxan qeyri-leqal rıçaqlara görə verdiyi hiddətli reaksiya kimi qiymətləndirmək olar:** ”İranın iqtisadi imperiyası, böyük hərbi-siyasi gücü SEPAH-ın leksikonunu yenidən itiləyərək “hücuma” keçməsi fonunda məsələyə işıq tutləndirir. Təhlükəsizlik qüvvələrinin 96 bəlucu öldürməsi informasiyalarının yayılması isə vəziyyətin rəngini tündləşdirir. Etirazları canlandıra biləcək digər hərəkətverici qüvvə təhsil ocaqlarıdır. İranın güc qüvvələrinin liseyləri, universitetləri hədəfə alması ölkənin hakimiyyət kulislərindəki yaranan qorxu aktının təzahürü kimi qiymətləndirilə bilər. Digər tərəfdən, İranda mövcud idarəetmə quruluşunun davam etməsini istəyən radikal hərbi-siyasi-dini dairələr hesablayır ki, etirazlar təbiətcə inqilabi xarakter daşıyır və rejimin təməlini dağıtmaq həddinə qədər inkişaf mağa çalışaq. İran öz daxilində tüğyan edən qanlı iğtişaşlar dalğasının böyüməsindən diqqəti yayındırmaq üçün sərhəddə özünün uydurduğu “təhlükələr”ə vurğu etməkdə maraqlıdır. Lakin Azərbaycanın bəsirət gözü açıqdır deyə, Tehranın niyyətlərini gözəl duyur. İrandakı genişmiqyaslı mitinqlərin sürətlə digər əyalətlərə yayılması Tehrana qarşı etnik kürd, ərəb və bəluc kartlarının oynanılması risklərini gücedəcək. Bütün bu olanların üstünə xarici təhdidlər müşküllərini də gəlsək, İranın hansı çətinliklərlə üzləşdiyinin ümumi cizgilərini sezmək çətin olmaz. İranın teokratik idarəetmə sistemi isə daxildəki agentura şəbəkəsinin qollarını az qala Arazboyu ilə əlaqələndirmək cəhdlərinə girişir. Ona görə də Azərbaycanın Ermənistan qarşısında qoyduğu sərhəd şərtlərini özünün təhlükəsizlik narahatlıqlarını ehtiva edən epitetlərlə bəzəməyə çalışır”.

**A.Kərimov vurğulayıb ki, Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxladığı 30 il müddətində İranın səsi bərk çıxmaq əvəzinə batmışdı:** ”İranın səs telləri Azərbaycanın Ermənistan qarşısındakı haqlı tələbləri, şərtləri və diktələri ilə açılmağa başladıqda isə Bakı ilə Tehran arasındakı münasibətlər aşkar gərginlik fazasına keçdi. İran qeyri-leqal gəlir mənbələrinin birindən məhrum olmasını müxtəlif yarlıqlar altında gizlətməyə çalışsa da, o, itirilmiş pul kisəsini hərbi-siyasi təhdidlərlə kompensasiya etmək istəyir ki, bu da Ermənistana havadarlıqla müşayiət edilir. İşğal müddətində Qarabağ zonasını özünün mütəşəkkil cinayətkarlıq zəncirinin bir həlqəsinə çevirmişdi. Azərbaycanın yaratdığı yeni reallıqlar isə Tehrana qarşı qlobal və regional əməkdaşlıqda əlavə marşrut açdı. İranın Azərbaycanla Zəngilan, Cəbrayıl istiqamətindəki sərhədlərini qanunsuz silahlı birləşmələr deyil, Azərbaycan sərhədçiləri mühafizə edir. Bəs Tehran niyə narahat olub az qala bunu qeyri-qanuni bir addım hesab edir?! İranın “sərhəd dəyişilməzliyi qəbuledilməzdir” qışqırıqları fonunda təlim keçirməsinin qayəsini izah etmək üçün hərbi məşqlərin proqramına baxmaq kifayətdir. İranın təhdidlərinin yedəyindəki təlimlər Tehranın Azərbaycana olan real münasibətin indikatorudur”.

**Analitik qeyd edib ki, qonşu ölkə güclü Azərbaycan görmək istəmir və bu qısqanclıqlarını özünün yaratdığı ideoloji şəbəkə vasitəsi ilə də dilə gətirir:** ”Azərbaycanda başına İranın ideoloji papağını, əyninə İranın ayətullah əbasını geyinib Tehranın dili ilə danışan kəsim mövcuddur. Onlara görə, Tehran aydan arı, sudan durudur, süddən çıxmış ağ qaşıqdır. Böyük bir ehtimalla, Azərbaycan da İranla sərhəddə hərbi təlimlər keçirəcək. Bu, Türkiyə ilə birgə təlimlər də ola bilər. Azərbaycan-İran münasibətlərinin siyasi aspektləri getdikcə gərginləşəcək, lakin iki ölkənin iqtisadi əməkdaşlıq platformasına xələl gəlməyəcək. Azərbaycanın hüquq-mühafizə orqanları İranın ölkədəki hücrələrinə qarşı əməliyyatlar keçirib onları ifşa edəcək yeni dəlillər ortaya qoyacaq”.

# Boşanmaların sayı azalıb

## Məhkəmədən əvvəl cütlüklərin mediasiyaya müraciət etməsi yavaş-yavaş öz effektini verir

**2022-ci ilin yanvar-avqust aylarında qeydiyyat şöbələri tərəfindən 40277 nikaha daxilolma və 10391 boşanma halları qeydə alınıb.**

**Dövlət Statistika Komitəsindən (DSK) verilən xəbərə görə, əhalinin hər 1000 nəfərinə 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 5,4-dən 6,0-a qədər artıb, boşanmaların sayı isə azalaraq 1,7-dən 1,5-ə düşüb.**

Qeyd edək ki, ötən illərlə müqayisədə bu il boşanma faizinin aşağı düşməsi cəmiyyətdə maraq doğurub.

**Hüquqşünas, Mediasiya Şurasının üzvü Fərhad Mehdiyev isə ”Şərq”ə açıqlamasında, boşanma sayının azalmasını mediasiyanın fəaliyyəti ilə əlaqələndirib:** ”2021-ci ilin iyul ayından tətbiqinə başlanan mediasiya prosesinin məqsədi, peşəkar danışıqlar aparma qabiliyyətinə sahib olan mediatorun vasitəsilə, aralarında hüquqi münaqişə olan tərəfləri bir masanın ətrafında əyləşdirməklə, onların arasındakı mübahisənin məhkəmədən kənar qaydada həll etməkdir. Mediator hər iki tərəflə ayrılıqda birgə danışıqlar aparır, tərəflərin maraqlarını öyrənir və onları uzlaşdırmağa çalışır. Qeyd olunan statistik göstəricilərdən hiss olunur ki, məhkəmədən əvvəl cütlüklərin mediasiyaya müraciət etməsi yavaş-yavaş öz effektini verir və mediatorların səyləri nəticəsində az da olsa tərəflərin barışmasına nail olunur. Onlar arasında bir müddət sonra təkrar boşanmaq üçün məhkəməyə müraciət edənlər də olur. Amma bir qismi psixoloqa müraciət edərək evliliklərinə bir şans vermək istəyirlər. Biz adətən boşanmaq istəyən cütlüklərə bir- birinə zaman verməyi tövsiyə edirik. Şəxsi təcrübəmə əsasən deyirəm ki, mediatorlar cütlüklərlə söhbət zamanı bir növ ailə psixoloqu rolu oynayır və onlara aralarındakı mübahisənin səbəblərini göstərərək münasibətlərini normallaşdırmaq üçün öz tövsiyələrini verir”.



“Cəmiyyətdə boşanmış qadınlara qarşı birmənalı münasibətin olmaması ikinci evliliklərin sayını azaldır”

Boşanmalarla əlaqəli başqa bir mövzuya toxunan Mediasiya Şurasının üzvü müşahidələrinə əsasən deyib ki, boşanmış şəxslərin əksəri nə ailə qurur, nə də ki sabit və davamlı münasibətə daxil olur və yaxud daxil olmaq istəyir: ”Düşünürəm ki, sosial elmlər üzrə tədqiqatçılar bunun səbəbini araşdırsalar yaxşı olar. Bəzi ehtimallar irəli sürmək olar, amma bu ehtimallar araşdırılıb təsdiq olunmalıdır. Kişilər tərəfindən yeni ailə qurmada istəksizliyin başında maddi vəziyyətindən asılı ola bilər, çünki o, uşaqları üçün aliment ödəyir, digər tərəfdən əmlak bölgüsü nəticəsində maddi durumu sarsılmış ola bilər. Amma maddi çətinlikdən başqa, boşanmış həm kişidə, həm də qadında bir tərəfdən yeni ailə institutuna qarşı dərin güvənsizlik yarandığı kimi, boşandıqdan sonra da insanların şəxsi münasibətlərində sevgi, məhəbbət, səmimi hisslər axtarışında olmadıqlarını qeyd etmək lazımdır. Boşanmış tərəflər sanki özlərini qoruyacaq tərzdə yeni ciddi bir münasibət qurmaqdan çəkinirlər. Bu da ümumi olaraq cəmiyyətdə xoşbəxtlik səviyyəsinin aşağı düşməsinə səbəb olur, çünki yalnız insanlar özlərini daha az xoşbəxt hiss edir. Məncə, bu vəziyyət üzərində ciddi düşünülməsi zərurəti olan sosial bir problemdir”.

**Psixoloq Azad İsazadənin ”Şərq”ə açıqlamasına görə, cəmiyyətdə boşanmış qadınlara qarşı birmənalı münasibətin olmaması ikinci evliliklərin sayını azaldır:** ”Onlara qarşı münasibət digər qruplara münasibətdən çox fərqlənir. Bizim cəmiyyətdə boşanmış xanımla evlənmək istəyən insanların sayı çox azdı. Avropa ölkələrində heç kim bunu problem etmir. Düzdür, əvvəlki dövrlərlə müqayisədə müəyyən qədər yumşalma olsa da məsələ hələ də sosial problem səviyyəsində qalıb. Yenidən evlənmə zamanı yaranan tərəddüdləri isə psixoloq qorxu, narahatlıqla əlaqələndirir. Onun fikrincə, digər bir səbəb boşanmış insanlarda şüuraltı qorxu və travmaların olmasıdır: ”İnsanların bir qismi özünə yeni bir həyat qurmaq istəyərkən həm təkrar bir insana alışa bilmək, həm də uşaqlarına yaxşı bir valideyn olub-olmayacağı düşüncəsi ilə tərəddüd edir. Bunlarla yanaşı, ətrafdakıların nə münasibət göstərəcəyini də düşünürlər. Bundan başqa, əgər ikinci dəfə ailə qurmaq istəyən insan qadındırsa, onun yenidən ərə getməsi ilə bağlı ətrafda daha çox söz-söhbət yaranır. Bir növ ”İlan vuran ala çatıdan da qorxar” məsələndə olduğu kimi...

Bu qorxu, narahatlıq insanların yenidən quracaqları ailəyə bəslədikləri ümidlərin puç olma ehtimalından yaranır, eyni hadisələrlə yenidən rastlaşma qorxusundan meydana gəlir. İnsan şüurunda belə bir fikir formalaşacaq ki, ”yenidən bu vəziyyəti yaşaya bilmərəm” və ya ”yenidən bu vəziyyəti yaşamaq istəmirəm. Məhz bu cür mənəli düşüncələr insanların yenidən ailə qurmasına əngəl olur. Bu düşüncələrin azalması üçün də müəyyən müddət lazım olur. Evlilik müddətində yaşadığı gərginlikdən bezən kişilər adətən bir xanımla tanış olub nikahdankənar münasibətdə olmağa daha çox üstünlük verir. Çünki bu zaman ailə öhdəlikləri, məsuliyyətdən azad olur. Qadın isə yaşadığı xəyanət, yaxud da şiddətdən qorxduğu, dəyərsiz və qayğısız ailə həyatından iyrəndiyi üçün varsa övladı və işi ilə özünə təsəlli verir və ikinci evlilikdən qaçır. Həm də insanlar boşandıqdan sonra artıq əvvəlki yoldaşlarına nisbətən daha da ideal insan seçmə niyyətində olurlar. Bunu da tapmaq çətin olduğu üçün onlar ilk evlilikdə olduğu hər sevirəm deyən insanla evlənməyə tələsmirlər. Sözsüz, aradan müəyyən müddət keçdikdən sonra onlar öz qorxularından azad ola, kimisə sevə və yenidən onunla evlənməyə razılıq verirlər”.

Şəymən Bayramova

# Ermənistan Daşkəsən istiqamətində artilleriya cəmləşdirir

## “Mövqelərimizə atəş açılsa, düşmən həmin an məhv ediləcək”



**Oktyabrın 16-sı günün ikinci yarısında Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun Daşkəsən istiqamətində yerləşən bölmələri ilə üzbəüz mövqelərinə hərbi nəqliyyat vasitələri ilə əlavə şəxsi heyət və 4 ədəd artilleriya qurğusunu cəmləşdirməsi müşahidə edilib.**

Müdafiə Nazirliyindən bildirilib ki, bölgədə yarana biləcək gərginliyə görə bütün məsuliyyət məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Bunun sadəcə göz dağı olduğunu deyən hərbi ekspert Elxan Qəniyev ”Şərq”ə bildirib ki, rəsmi İrəvan Zəngəzur dəhlizinin açılması ilə razılaşmasa olacaqlardan qorxur: ”Bu yaxınlarda Rusiya, Azərbaycan və Ermənistan prezidentləri arasında üçtərəfli görüş olacaq. Onlar yaxşı bilir ki, bu görüş yenə nəticəsiz olsa, Azərbaycan hərbi yola əl atmalı olacaq. Bunun İranın təlimləri ilə eyni vaxtda olmasının altında fərqli məqamlar gizlənir. Astana sammitində isə prezident dedi ki, ”Bizim səbrimiz artıq tükənib. Əgər Naxçıvana yol açılmasa biz yenidən hərbi yola əl atacağıq”. Bu da onları təşvişə salıb”.

**Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik Şair Ramaldanov isə qeyd edib ki, ermənilər hələ də revanşist əməllərdən əl çəkməyib:** ”Artilleriya yerləşdirməklə onlar heç nə əldə edə bilməzlər. Çünki bu ərazilər tam nəzarət altındadır. Ordan bizim mövqelərə atəş açılsa, düşmən həmin an məhv ediləcək. Sərhədlərimizdə ağır silahların yerləşdirilməsi bizi biganə qoya bilməz. Bizim tərəf də lazım olan tədbirlər görəcək. Digər tərəfdən ölkə başçısının dediyi kimi ”Əgər onlar bizim sərhədi tanımırsa, biz də onların sərhədini tanımırıq”. Yəni ki, ortada konkret bir sərhəd yoxdur.

Əgər rəsmi İrəvan növbəti təxribata cəhd etsə, Azərbaycan Ordusu bundan istifadə edərək həmin əraziləri ələ keçirərək öz təhlükəsizliyini qoruya bilər.

Çünki belə bir hüquqi şərait yaranıb və beynəlxalq normalar çərçivəsində təhlükə mənbəyi olan dövləti öz gücü hesabına neytrallaşdırmaq ixtiyarı verilir.

Yəni ordumuz 12-13 sentyabrdakı kimi təxribatlara adekvat cavab verərək anti-terror əməliyyatı apara bilər. Çünki beynəlxalq aləmdə artıq belə bir praktika mövcuddur. Türkiyə Suriya və digər ölkələrdə təhlükə mənbəyi sayılan PKK-ya qarşı anti-terror əməliyyatları aparıb.

Bu isə terrorçuları öz sərhədindən uzaqlaşdırmaq məqsədi daşıyırdı. Biz də sərhədlərin tanınmadığı bir vəziyyətdə təxribatlara sərt cavab verə bilərik”.

**Nihat Müzəffər**

# Mollalar Azərbaycana təhdid ünvanlayır!

## “Araz çayı boyunca Azərbaycan-Türkiyə birgə təlimlərinin keçirilməsi təhdidlərə tutarlı cavab olardı”



**İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH-ın) Quru Qoşunlarının Araz çayı yaxınlığında hərbi təlimi başlayıb.Təlimlərin qoşunların hərbi gücünün artırılması məqsədilə və illik proqrama əsasən keçirildiyi bildirilib.Sözügedən təlim SEPAH-ın Quru Qoşunlarının ”Aşura” Qərargahı tərəfindən Ərdəbil və Şərqi Azərbaycan vilayətlərində reallaşdırılacaq.**

Mövzu ilə bağlı ”Şərq”ə danan siyasi şərhçi Asif Nərimanlı söyləyib ki, təlimin senarisinə helikopter-paraşüt əməliyyatı, gecə hücumu, helikopter döyüşü, PUA-ların istifadəsi, nəqliyyat/rabitə xətlərinin ələ keçirilməsi və nəzarət, strateji yüksəkliklərin əldə olunması və Araz çayı üzərində körpünün inşa edilməsi daxildir:

”İran ordusu Azərbaycan sərhədində həmin senarini məşq edəcək. Ən diqqətçəkən məqam Araz çayı üzərindən körpünün inşa edilməsinin də təlimə daxil olmasıdır.

Bu, sərhədə toplanan ordunun Araz çayı üzərindən Azərbaycan ərazisinə keçməsinin mümkünlüyünün mesajıdır. Eyni zamanda, inşası nəzərdə tutulan körpü, yaxud körpülər üzərindən atlayaraq, müdaxilə edə biləcəklərinə işarədir.

Mollalar açıq şəkildə Azərbaycana təhdid ünvanlayır. Araz çayı boyunca Azərbaycan-Türkiyə birgə təlimlərinin keçirilməsi təhdidlərə tutarlı cavab olardı”.

**Aygün**

# "Makron özünü bizə zorla vasitəçi kimi, arbitr kimi sırıya bilməz"

## Əlisahib Hüseynov: “Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesindən uzaqlaşdırılmasını tələb edirik”



**”Makronun nə vaxtsa Azərbaycana qarşı bu qədər açıq şəkildə xaincəsinə davranacağı prinsipcə gözlənilən idi”. Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, Fransanın hazırkı prezidenti öz sələflərinin layiqli varisi kimi davranmır:**

”Keçmiş Fransa prezidentlərindən fərqli olaraq hazırkı prezident açıq-aşkar ermənipərəst mövqe sərgiləmək xəttini tutub. Bunu Astanada keçirilən Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev də vurğuladı. Dövlət başçımız qeyd etdi ki, ”Təəssüf ki, Fransanın indiki rəhbərliyi əvvəlkilərdən fərqli olaraq, - mənim isə prezident Şirakla da, prezident Sarkozi ilə də, prezident Olandla da kifayət qədər sıx ünsiyyət qurmaq imkanım var idi. Münasibətlər kifayət qədər ölçülübbiçilmiş, kifayət qədər mehriban idi və Fransada müəyyən erməni diasporu amilinə baxmayaraq, biz həmişə Fransanın əvvəlki prezidentlərinin fəaliyyətini, balanslaşdırılmış qəbul edirdik, - mahiyyət etibarilə bütün bunların üstündən xətt çəkdi”. Odur ki, Fransa Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinə yardım etmək, vasitəçi rolunu oynamaq ixtiyarını artıq həm mənəvi, həm də siyasi baxımdan itirmiş sayılır. Çünki Emmanuel Makronun səriştəsiz, naşı siyasətçilər kimi səsləndirdiyi ermənipərəst bəyanatları rəsmi Paris və Bakı arasında münasibətlərə ciddi surətdə mənfi təsir göstərməklə bərabər, həm də Ermənistan və Azərbaycan arasında start götürmüş, çətinliklə olsa da irəliləməkdə olan normallaşma prosesinə süni əngəl yaradır. Ona görə də Azərbaycan cəmiyyəti də birmənalı olaraq Fransanın vasitəçilik cəhdlərini davam etdirməsinin əleyhinədir. Hazırda demək olar ki, hər bir azərbaycanlıda Fransanın Azərbaycanla Ermənistan arasında obyektiv vasitəçi ola bilməyəcəyi ilə bağlı qəti fikir formalaşıb”.



**Ə.Hüseynov qeyd edib ki, özünü ”super demokrat” hesab edən üç-beş nəfər dırnaqarası ”azərbaycanlı”nın Fransa prezidentinin Azərbaycan üzərinə demarşına haqq qazandırması isə Vətənə, dövlətə asi olmaqdan başqa bir şey deyil:** ”13-14 sentyabr sərhəd döyüşləri zamanı təcavüzkar Ermənistanı bir kənara qoyub, öz dövlətini - Azərbaycanı ”təcavüzkar” adlandıran idbar zehniyyət sahiblərinin bu gün də Makronun anti-Azərbaycan mövqeli sərsəm fikirlərini alqışlamaları açıq-aşkar xəyanətdir. Erməniləri dəstəkləyən, ”Fransa Ermənistanı heç vaxt tək qoymayacaq” deyən Emmanuel Makron kimi bir türk düşməninin əsassız ittihamlarına haqq qazandırmağın özü də bir erməniçilikdir. Əsl azərbaycanlı heç vaxt belə bir xəyanət çirkabına bulaşmaz! Biz Milli Həmrəylik Partiyası olaraq Azərbaycanla Ermənistan arasında sülh prosesi üçün real addımlar atıldığı bir vaxtda Emmanuel Makronun Cənubi Qafqazda sülh prosesinə ağır zərbə vuran bəyanatlarını pisləyir və Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesindən uzaqlaşdırılmasını tələb edirik. Avropa İttifaqının vasitəçilik səylərini heçə endirən Fransa prezidenti bu proseslərdə obyektiv və tərəfsiz vasitəçi olmayacağını bəyan etməklə əslində özü də öz vasitəçiliyini açıq-aşkar şübhə altına salmış oldu. Odur ki, Fransanın belə bir təəssübkeşlik və tərəfkeşlik sərgilədiyi bir məqamda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması işində hər hansı bir rol oynaması qeyri-mümkündür”.

**Politoloq vurğulayıb ki, küçə leksikonundan istifadə edərək Azərbaycan əleyhinə ittihamlar səsləndirən, iftiralar yağdıran bir ölkənin prezidenti özünü bizə zorla vasitəçi kimi, arbitr kimi sırıya bilməz:** ”Makron qlobal geosiyasi hiylələrini ”erməni sevgisi” kimi təqdim edib, Ermənistan üzərindən Azərbaycana qarşı siyasi müharibə elan edirsə, biz bu ölkəyə vasitəçi kimi yox, real düşmənimiz kimi baxmalıyıq. Bizə qarşı düşmən mövqe sərgiləyən bir ölkə (Fransa) digər düşmənimizlə (Ermənistanla) bizim aramızda axı necə vasitəçilik edə bilər? Dünya praktikasından da məlumdur ki, vasitəçi hökmən neytral, tərəfsiz və qərəzsiz olmalıdır. Bəs, Fransa bu gün bu tələblərə cavab verirmi? Əsla, yox! Makron vasitəçilik missiyasını öz üzərinə götürərək tərəfləri Praqada danışıqlar masasına dəvət etmişdisə, o, ilk növbədə məhz bu kriterlərdən çıxış etməliydi və onun açıqlamaları da yalnız və yalnız sülh prosesinə dəstək xarakterli fikirlər olmalıydı. Lakin əfsuslar olsun ki, biz bunun tamamilə əksinə olan bir mənzərə ilə qarşılaşdıq. Makron məlum müsahibəsi ilə vasitəçiliyin kriterlərinə, prinsiplərinə tüpürdü. Biz də Makrona və onun dırnaqarası ”vasitəçilik” səylərinə eyni münasibəti göstərərək Fransanı prosesdən uzaqlaşdırmalıyıq. Fransa artıq vasitəçi deyil, bu ölkə sadəcə və sadəcə Ermənistanın ”vəkil”idir. Azərbaycanın Fransa kimi ”vəkil”lərə ehtiyacı yoxdur!”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**



# İdeyanı Azərbaycan irəli sürüb

## Türk Dövlətləri Təşkilatı nəzdində dini liderlərin birliyinin yaradılması önəmli hadisədir

**Bu həftə Azərbaycanda Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini liderlərinin türk-islam dünyasının məram və amallarına xidmət edən görüşləri keçiriləcək.**

Bu barədə "Şərq"ə Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat Xidmətindən bildirilib. Qeyd olunub ki, 19-21 oktyabrda Azərbaycan Türk Dövlətləri Təşkilatının müsəlman dini liderlərinin türk-islam dünyasının məram və amallarına xidmət edən görüşlərinə və mənəvi birliyinin təşkilati baxımdan gerçəkləşmə tədbirlərinə ev sahibliyi edəcək. Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarə rəhbərləri Şurasının təsis edilməsi məramı ilə Türk Dövlətləri Təşkilatının Baş Katibi Bağdad Amreyev başda olmaqla Türkiyə Diyanət İşləri Başkanı Əli Erbaş, Özbəkistan Müftisi Nuriddin Xoliknazarov, Qazaxıstanın Baş Müftisi Naurızbay Taqanulı, Qırğızıstan Müftisi Zamir Rakiyev, Türkmənistan Müftisi Yalkab Xocaquliyev Azərbaycanda bir araya gələcəklər.

Türk Dövlətləri Təşkilatının müsəlman dini liderlərinin daha öncə İstanbulda və Türküstanda görüşlərinin ardınca Bakıda üçüncü görüşü 19 oktyabrda Gülüstan sarayında baş tutacaq. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin rəhbərlərinin xeyir-duası və müsəlman dini liderlərinin yekdil rəyi ilə ərsəyə gələn Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarə rəhbərləri Şurasının Əsasnaməsi oktyabrın 20-də Türk dünyasının Mədəniyyət paytaxtı elan olunmuş Şuşada imzalanacaq, Birgə Bəyanat qəbul ediləcək. Dini liderlər Şuşanın Yuxarı Gövhərağa məscidində birgə namaz qılacaqlar.

Oktyabrın 21-də Gülüstan sarayında Türk Dövlətləri Təşkilatının müsəlman dini liderləri və elm adamları "Türk-İslam irsinin zənginliyi və onun zamanımızın aktual problemləri qarşısında dəyəri" mövzusunda Beynəlxalq Konfransda bir araya gələcəklər. Türk coğrafiyasının tanınmış elm və din xadimlərinin iştirak etdiyi konfransda türk-islam sivilizasiyasının perspektivlərinə və dünyada sülh və təhlükəsizlik işinə töhfələrinə dair fikir mübadiləsi aparılacaq, qardaş xalqlarımız və dövlətlərimizin ortaq mənafe və ümumi maraqlarına xidmət edən addımlar müzakirə olunacaq. Həmin gün dini liderlər Heydər məscidində Cümə namazı qılacaqlar. Tədbirlərdə TDT-yə üzv ölkələrin nümayəndə heyətləri, elm, din, siyasi və ictimai xadimləri iştirak edəcəklər.

Qeyd edək ki, Türk Dövlətləri Təşkilatı nəzdində dini liderlərin birliyinin yaradılması ideyası Azərbaycan tərəfindən irəli sürülüb. Prezident İlham Əliyev bu ideyanı müsbət qarşılayıb və təsdiq edib. Bu ilin aprelində İstanbulda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dini Liderlər Şurasının ilk təsis toplantısı keçirilib. Toplantıda Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanın hazırladığı Türk Dövlətləri Təşkilatının Dini Liderlər Şurasının Nizamnaməsini təqdim edib və sənəd qəbul edilib. Azərbaycanın təşəbbüsü ilə yaradılan TDT dini liderlərinin Şurası türk dövlətləri arasında mənəvi bağ yaradılması, eyni kökdən olan xalqların vahid mövqeyinin formalaşması üçün mühüm rıçaq sayıla bilər.

**Türk Dövlətlərinin dini liderlərinin Bakıda keçiriləcək zirvə toplantısını dəyərləndirən millət vəkili Ceyhun Məmmədov "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan təhsil, iqtisadi, diplomatik və hərbi müstəvidə türk dövlətləri ilə sıx əməkdaşlıq edir. Bakıda keçirilməsi gözlənilən zirvə görüşü də Türk Dövlətləri Təşkilatının fəaliyyətinin müxtəlif sahələr üzrə genişləndiyinin göstəricisidir. Dini liderlərin bir masa arxasında toplanıb müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi aparması da son dərəcə əhəmiyyətli məsələdir:** "Ümumiyyətlə, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini liderlərinin oktyabrda Azərbaycanda baş tutacaq zirvə görüşü bir sıra məqamlar baxımından ələmətdar hadisədir. Dini, dili, tarixi bir olan türkdilli ölkələr birliyini əhatə edəcək bu qurum mənəvi birliyin qurulmasında mühüm əhəmiyyət daşıyır.

> ***'Bakı sammiti türk dövlətlərinin müsəlman dini liderlərinin mövcud əlaqələrinin daha da təkmilləşməsi üçün əla imkanlar yaradacaq və türk dünyası üçün yeni çağırışlara vəsilə olacaq"***

Hazırkı dünyada milli-etnik dözümsüzlüyün acı nümunələri ilə üzləşən dövlətlər kənardan ixrac olunan ekstermist və yad dalğanın qarşısını almaq üçün bir-birinə dəstəyə böyük ehtiyac duyurlar. TDT-nin bu yeni platforması türkdilli dövlətlərin ortaq mədəni izinin təbliği üçün əhəmiyyətlidir. Şura üzv ölkələrin mədəni sərvəti sayılan abidələri, fikir adamlarını, din xadimlərini tanıtmaq və öyrənmək üçün imkanlar yaradır. Həmçinin dövlətlərin dini-ideoloji müstəvidə fəaliyyətinin koordinasiyası üçün nufuzlu din xadimlərinin dəstəyini ortaya qoyacaq.

Dini liderlərin Şurası eyni zamanda məzhəblərarası qardaşlığın təbliği və eyni zamanda dünyaya nümayişi üçün yaxşı imkandır. Şuranın Bakıda keçiriləcək iclası xalqların qardaşlığı, dini irsinin tanıdılması üçün əməkdaşlıq müstəvisinə çevriləcək. Türk Dövlətlərinin Dini Liderlərinin Şurasının ikinci toplantısının Bakıda keçirilməsi təklifi həmçinin Prezident İlham Əliyevin dünyaya bəyan etdiyi tolerantlıq prinsiplərinin bir daha nümayişi olacaq. Dini rəhbərlərin Şurası münasibətlərin dərinləşdirilməsi, Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq mədəni və mənəvi dəyərlərin inkişaf etdirilməsi üçün geniş imkanlara malikdir. TDT Dini Liderlər Şurasının Bakı sammiti türk dövlətlərinin müsəlman dini liderlərinin mövcud əlaqələrinin daha da təkmilləşməsi üçün əla imkanlar yaradacaq və türk dünyası üçün yeni çağırışlara vəsilə olacaq".

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Gülüş və sevinc yenə Füzuliyə qayıdır!

## 2023-cü ilin payız aylarında ilk Füzuli sakinlərinin şəhərə qayıdışı gözlənilir



**Füzuli şəhərinin işğaldan azad edilməsinin ildönümüdür. Oktyabrın 17-də Füzuli rayonunun Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan tam azad edilib.**

Əməliyyat nəticəsində Ermənistan ordusu xeyli canlı qüvvə və texnika itirib. Üstəlik, Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması Azərbaycan Ordusunun cənub cəbhəsi boyunca irəliləməsi üçün geniş imkanlar yaradıb. Azərbaycanın Vətən müharibəsində düşmən üzərində qalib gəlməsindən 6 gün sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilən Füzuli rayonunda olublar. İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırıb.




**27 illik işğal müddətində Füzuli və digər yaşayış məntəqələrinin düşmən tərəfindən dağıdıldığını deyən 84 saylı Füzuli seçki dairəsindən seçilən millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, orda təkcə evlər və infrastruktur dağıdılmamışdı, həm də ekoloji soyqırımı baş vermişdi:** "Füzuli şəhəri işğaldan azad olunanda cənab prezident də qeyd etdi ki, "Şəhər Ermənistan tərəfindən elə dağıdılıb ki, hətta Azərbaycan bayrağını asmaq üçün sağlam tikili tapmaq mümkün olmadı". Bu ondan xəbər verir ki, Qarabağın ikinci ən böyük şəhəri Ermənistan tərəfindən tamamilə məhv edilmişdi.

Amma artıq Füzuli şəhəri yeni bərpa mərhələsinə qədəm qoyub. Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib. İndi oradan uçuşlar həyata keçirilir. Bu hava limanı eyni zamanda Qarabağın "hava qapısı" olaraq, bölgənin nəqliyyat və kommunikasiyasının inkişafına xüsusi töhfə verir. Digər tərəfdən Füzuli-Şuşa yolu tikintisi davam edir və bu şəhərləri birləşdirən zəfər yolu istifadəyə verilib. Həmçinin Füzuli ilə Zəngilanı birləşdirən dəmir yolu xətti və avtomobil yolu intensiv şəkildə inşa edilir.

Füzuli və Hadrud arasındakı avtomobil xətti də istifadəyə verilmək üzrədir. Bütün bunlar nəqliyyat və logistikanın tez bir zamanda inkişafına nail olunduğundan xəbər verir.

Eyni zamanda 2-ci ağıllı kənd də Füzulidə yerləşəcək. Hətta Füzuli şəhərinin baş planı da təsdiq edilib. Artıq 2023-cü ilin payız aylarında ilk Füzuli sakinlərinin şəhərə qayıdışı gözlənilir. Bərpa olunan bu şəhər tezliklə öz daimi və tarixi sakinlərini yenidən qarşılayacaq. Bununla da gülüş və sevinc yenidən Füzuliyə qayıdacaq".

**Nihat Müzəffər**

# YUNESKO səsini çıxarmalıdır!

## Paylaşılan video erməni vandallığının isbatıdır

**Sosial şəbəkələrdə ermənilərin azərbaycanlılara məxsus qəbiristanlığı dağıtdıqlarının görüntüləri yayılıb. Görüntülərdə bir ermənin qəbirlərin yanında dayanıb video çəkdiyi, digərinin isə yük maşını ilə başdaşılarını vurub aşırdığı görünür. Çox güman ki, onlar bu daşları satmaq üçün aparırlar.**



*"Minlərlə abidəmiz yerlə-yeksan olunub"*

Məkan haqda dəqiq məlumat yoxdur. Lakin teleqram kanallar bunun Basarkeçər ərazisindəki azərbaycanlı qəbiristanlığı olduğunu bildirirlər.

Hadisənin hansı ərazidə baş verməsindən asılı olmayaraq, söhbət vandalizm aktından və azərbaycanlıların mədəni irsinə qarşı növbəti vəhşilikdən gedir.

Məzarlığın dağıdılması - tarixi təhrif edərək azərbaycanlıların izini silmək cəhdidir.

Baş verənlər rəsmi Bakının Ermənistan ərazisindəki azərbaycanlılara məxsus tarixi-mədəni abidələrin taleyinin YUNESKO tərəfindən araşdırılması üçün missiyanın yaradılması təklifinin aktuallığını bir daha göstərir.

YUNESKO-nun laqeyd münasibəti fonunda erməni tərəfi Azərbaycan xalqına yüz illiklər boyu yaratdığı mədəni-tarixi irsi dağıtmaqda davam edir. YUNESKO 1954-cü ilin Haaqa Konvensiyasının şərtlərinin kobudcasına pozulmasına göz yumduqca, dağılan abidələrin, məzarlıqların, məscidlərin sayı artır.

**Sosial şəbəkədə yayılan görüntülərlə bağlı "Şərq"ə danışan sabiq millət vəkili, hüquq müdafiəçisi Çingiz Qənizadə bildirib ki, 30 ildir Ermənistan Azərbaycanın tarixi, mədəni, dini abidələrini və milli, mənəvi dəyərlərini dağıtmaqla məşğuldur. Yeni görüntülər də bunun bariz nümunəsidir:**

"Maraqlıdır, ermənilər videonu özləri çəkib və paylaşıblar. Artıq Ermənistanın deyəcəyi söz qalmır. YUNESKO belə hallara qarşı münasibətini bildirməlidir. İllərdir, hazırda işğaldan azad olunan Azərbaycan torpaqlarına baxış keçirmələrini, missiya göndərmələrini istəyirik.

Qəti şəkildə imtina edirlər. Utanmadan ayrı-ayrı uydurma faktları nümunə çəkirlər. Guya, biz 44 günlük müharibə dönəmində ermənilərə məxsus tarixi abidələrini dağıtmışıq. Paylaşılan video erməni vandallığının isbatıdır.

YUNESKO yenə səsini çıxartmayacaq. Minlərlə abidələrimiz yerlə-yeksan olunub, reaksiya verməyiblər. Susmuş vicdanlarının oyanacağına ümid bəsləmirəm. Hər halda üzv olduğumuz müvafiq beynəlxalq təşkilatlara baş verənləri çatdırmalıyıq".

**Aygün Tahir**

**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov Türkiyəyə səfər edir. XİN başçısı İstanbulda Türk Dövlətləri Təşkilatı (TDT) xarici işlər nazirlərinin şurasının toplantısında iştirak edəcək. Görüşdə ümumilikdə TDT üzvləri Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və müşahidəçi ölkələr - Macarıstan və Türkmənistanın xarici işlər nazirləri iştirak edəcəklər.**



# Azərbaycan və Türkiyə ciddi strateji planlar çızır

## Toplantılar türk dövlətlərinin vahid mərkəzdə birləşməsi prosesini daha da sürətləndirəcək

**Toplantını "Şərq"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, bu, türk dövlətlərinin siyasi-iqtisadi inteqrasiyasına hesablanıb:** "Türkiyə Türk Dövlətləri Təşkilatını formalaşdırmaqla dünyada yeni bir geosiyasi nizamda öz mövqeyini artırır. Eyni zamanda beynəlxalq güc statusu almağa da çalışır. Bu xüsusda türk dövlətləri birliyinin formalaşdırılması ölkəmizin də milli maraqlarına cavab verir. Hazırda həm Azərbaycan, həm də Türkiyə bu istiqamətdə ciddi strateji planlar ortaya qoyur. Prezident İlham Əliyevin və Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın Mərkəzi Asiyaya, türk dövlətlərinə mütəmadi səfərləri artıq bu dövlətlərin ciddi şəkildə təşkilatlandığını deməyə əsas verir. Düşünürəm ki, XİN başçılarının görüşündə yeni siyasi-iqtisadi əlaqələr, çağırışlara hazır olmaq, həmçinin, orta dəhlizin formalaşdırılması, Çindən, Qırğızıstandan keçməklə Xəzər dənizinə qədər yeni dəmir yolunun çəkilişi, hərbi istiqamətdə müqavilələrin bağlanması kimi vacib məsələlər müzakirə olunacaq. Ona görə də TDT üzvlərinin görüşü xüsusi önəm kəsb edir. Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı geosiyasi reallıqlar məhz türk dövlətlərinin dəstəyi ilə daha da möhkəmlənir. Toplantı türk dövlətlərinin vahid mərkəzdə birləşməsi prosesini daha da intensivləşdirəcək" .

**Günəş Mərd**

# Sifarişçi Mədəniyyət Nazirliyi deyil

## Nazirlik heykəllə bağlı müzakirələrə münasibət bildirdi

**"Sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilən heykəlin sifarişçisi Mədəniyyət Nazirliyi deyil".**

Bu barədə Mədəniyyət Nazirliyinin yaydığı açıqlamada bildirilib.

*Qeyd edək ki, sosial şəbəkələrdə Şuşada Molla Pənah Vaqifin heykəlinin ucaldıldığı ilə bağlı məlumatlar paylaşılıb.*

# Bakıda həkim özünü öldürdü

**Bakıda intihar hadisəsi baş verib.**



"Qafqazinfo" bildirir ki, 1989-cu il təvəllüdlü Rüstəm Maqsudov Binə qəsəbəsində kirayə yaşadığı mənzildə qol və qarın nahiyəsinə kəsici alətlə xəsarətlər yetirib. Çoxlu qan itirən 33 yaşlı şəxs vəfat edib.

Araşdırmalar zamanı məlum olub ki, həyatına son qoyan R.Maqsudov həkim-onkoloqdur. O, Tibb Universitetini bitirdikdən sonra 5 il (2015-2020-ci illər) Milli Onkologiya Mərkəzində rezident kimi fəaliyyət göstərib. Daha sonra R.Maqsudov ixtisaslaşmış xəstəxanada həkim kimi işini davam etdirib.

*Faktla bağlı Xəzər Rayon Prokurorluğunda araşdırma aparılır.*

# Milli maraqlar əsas prioritetdir

## Kamran Bayramov: "Azərbaycan bölgədə yeni siyasi və iqtisadi reallıqlar formalaşdırıb"



**"Ölkəmizin əldə etdiyi bütün uğurlar Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən daxili və xarici siyasətinin nəticəsidir. Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş daxili və xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi sistemini təkmilləşdirir, həm də regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır".**

**Bu fikirləri "Şərq"ə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov bildirib.**

K.Bayramov qeyd edib ki, dövlət başçımızın məqsədyönlü xarici siyasəti nəticəsində keçən dövr ərzində Azərbaycan regional və qlobal əhəmiyyətli iqtisadi, siyasi və humanitar layihələrin mərkəzinə çevrilib, bir sıra əhəmiyyətli əməkdaşlıq formatlarının təşəbbüskarı olub: "Prezident İlham Əliyev oktyabrın 13-də Astanada, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısında çıxışı zamanı bildirib ki, 2019-cu ildən bəri Azərbaycan üzv ölkələrin yekdil qərarı əsasında dünyada BMT-dən sonra ən böyük beynəlxalq struktur olan Qoşulmama Hərəkatına sədrlik edir. Sədrliyimiz yenə də yekdil qərar əsasında daha bir il, 2023-cü ilin sonuna qədər uzadılıb. Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində həmrəyliyi gücləndirmək, bu Hərəkatın siyasi çəkisini və qlobal nüfuzunu artırmaq üçün böyük səylər göstərir. Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı yaradılıb. COVID-19-dan sonrakı dünya ilə bağlı fikir mübadiləsi aparmaq və Hərəkatın mövqeyini formalaşdırmaq məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin növbəti il üçün Azərbaycan tərəfindən yüksək səviyyəli iclasının keçirilməsi təklifi irəli sürülüb".

*K.Bayramov vurğulayıb ki, hazırda Azərbaycan və Türkiyə türkdilli dövlətlər arasında əlaqələrin inkişaf etdirilməsində strateji rol oynayır. Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizin ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən biri olmasına səbəb olub:* "Xüsusilə qeyd etmək lazımdır ki, aparılan uğurlu iqtisadi fəaliyyət nəticəsində 2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit həcmi təxminən 65 faiz artıb. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Ölkəmiz böyük enerji resurslarına malik Türkmənistan və Qazaxıstanın təbii ehtiyatlarının dünya bazarına çıxarılması baxımından önəmli rol oynaya bilər. Avropanın Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrdəki enerji resurslarına ciddi ehtiyacının yaranması Azərbaycanın da daxil olduğu bu təşkilatın siyasi təsir imkanlarını daha da artırır".

Deputat əlavə edib ki, ümumilikdə, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu həmişə öz dinamikliyi, intensivliyi və çevikliyi ilə xarakterizə olunub və daim milli maraqlara söykənib. 2020-ci ildə Ermənistanın 30 illik işğalına son qoymaqla öz ərazi bütövlüyünü bərpa edən Azərbaycan, bölgədə yeni siyasi və iqtisadi reallıqlar formalaşdırıb.

**Nihat Müzəffər**

# Növbəti erməni vandalizmi

## Bu dəfə yük maşınları ilə azərbaycanlılara məxsus qəbiristanlıqda məzar daşlarını dağıdırlar



**Sosial şəbəkələrdə ermənilərin azərbaycanlılara məxsus məzarları dağıtmasını əks etdirən videogörüntülər yayılıb. Videodan aşkar görünür ki, erməni vandalları yük maşını ilə azərbaycanlılara məxsus qəbiristanlıqda məzar daşlarını dağıdırlar. Məzarlığın dağıdılması videosunu Artur adlı erməni yayıb və məzarları təhqir edir.**

Məkan haqda dəqiq məlumat olmasa da, teleqram kanalları bunun Basarkeçər ərazisindəki azərbaycanlı qəbiristanlığı olduğunu bildirirlər. Hadisənin hansı ərazidə baş verməsindən asılı olmayaraq, söhbət vandalizm aktından və azərbaycanlıların mədəni irsinə qarşı növbəti vəhşilikdən gedir. Məzarlığın dağıdılması - tarixi təhrif edərək azərbaycanlıların izini silmək cəhdidir. Ermənilərin azərbaycanlılara məxsus maddi-mədəni irsi, dini abidələri, müqəddəs məkanları dağıtması və murdarlaması onların köhnə vərdişidir. Bunun sübutu işğaldan azad edilmiş ərazilərdəki acınacaqlı vəziyyətdir. 30 illik işğal dövrü erməni vandalizminin "ən kreativ" mərhələsi olub. Azərbaycanlı əkiz bacılara məxsus məzarların arasından səngər salmaq, məscidlərdən tövlə kimi istifadə etmək, qəbir daşlarından pillələn düzəltmək, minarələri müşahidə məntəqəsinə çevirmək və s. İşğaldan əvvəl yüz minlərlə azərbaycanlının yaşadığı Qarabağ və Şərqi Zəngəzurun yaşayış evləri, məktəbləri, mədəniyyət mərkəzləri, məscidləri, məzarlıqları ermənilər tərəfindən mədəni genosidə məruz qalıb. Taxıl zəmilərinə, minalanmış ərazilərə, poliqonlara, səngərlərə və bunkerlərə çevrilib. Bütün bu faktları bölgəyə gələn xarici diplomatlar,

*Əhməd Şahidov: "Erməni cinayətlərini sistemli şəkildə bir yerə toplamaq, sübut və dəlillərlə beynəlxalq məhkəmələrə, Haaqa və İnsan Haqları üzrə Avropa Məhkəməsinə müraciət etmək lazımdır"*

beynəlxalq ekspertlər, vətəndaş cəmiyyəti fəalları, jurnalistlər və ən sadə vətəndaşlar da təsdiqləyirlər. Ermənilərin bölgədəki genişmiqyaslı vandalizmi bir sıra ölkələrin və beynəlxalq təşkilatların hesabatlarında da əks olunur. Amma "UNESCO"nun laqeyd münasibəti fonunda ermənilər Azərbaycan xalqının bu bölgədə əsrlər boyu yaratdığı mədəni-tarixi irsi dağıtmaqda davam edir. Baş verən bu vandalizm bir daha rəsmi Bakının Ermənistan ərazisindəki azərbaycanlılara məxsus tarixi-mədəni abidələrin taleyinin "UNESCO" tərəfindən araşdırılması üçün missiyanın yaradılması təklifinin aktuallığını göstərir. Əfsuslar olsun ki, "UNESCO" 1954-cü il Haaqa Konvensiyasının şərtlərinin ermənilər tərəfindən kobudcasına pozulmasına göz yumduqca, azərbaycanlılara məxsus dağılan abidələrin, məzarlıqların, məscidlərin sayı artır.

**Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov "Şərq"ə bildirib ki, bu, növbəti erməni vandalizmidir. Ekspert vurğulayıb ki, nəinki erməni silahlı birləşmələri, hətta mülki ermənilər də Azərbaycanın mədəni-tarixi irsinə düşmən münasibət sərgiləyirlər:** "Ermənilər Azərbaycan xalqına qarşı müharibə cinayətlərində, vandalizm hərəkətlərində daim iştirak ediblər. Birinci Qarabağ müharibəsində erməni vəhşiləri xalqımıza qarşı soyqırımlar, qətliamlar, dəhşətli cinayətlər, terror aktları törədiblər. Azərbaycan tarixinə, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə çirkin hücumlar ediblər. Hər zaman çalışıblar ki, xalqımızın həmin torpaqlarda əsrlər boyu yaşadığına dair bütün tarixi izləri yox etsinlər. Konkret sonuncu videoda vandalizmlə, xalqımızı təhqir etməklə yanaşı, həm də soyğunçuluq faktı var. Ermənilər azərbaycanlılara məxsus məzarları dağıdaraq qəbir daşlarını satıblar. Təbii ki, bu cür vəhşiliklər tərəfimizdən daim diqqət mərkəzində olmalıdır. Ermənilərin hər vəhşiliyini ifşa etməliyik, dünyanın nəzərinə çatdırmalıyıq. Göstərməliyik ki, erməni vandalları həm məzarları dağıdır, həm də bunu videoya çəkərək yayır, Azərbaycan xalqını təhqir edirlər. O baxımdan erməni cinayətlərini sistemli şəkildə bir yerə toplamaq, sübut və dəlillərlə beynəlxalq məhkəmələrə, Haaqa və İnsan Haqları üzrə Avropa Məhkəməsinə müraciət etmək lazımdır. Bu istiqamətdə artıq xeyli işlər görülüb, ancaq kifayətlənmək olmaz. Erməni quldurlarının bütün əməlləri ifşa edilənə kimi fəaliyyətimizi davam etdirməliyik. Onlar öz cinayətlərinə görə cavab verməli, əməlləri siyasi-hüquqi qiymətini almalıdır. Ən əsası da ermənilər bütün vandal hərəkətlərinə görə təzminat ödəməlidir".

**İsmayıl Qocayev**



# İranın təlimləri iki məqsədə yönəlib

## Tehranın bu addımı həm daxili auditoriyaya hesablanıb, həm də regiondakı qüvvələrə gücünü göstərir

**İran İnqilabı Keşikçiləri Korpusu (SEPAH) ölkənin şimal-qərbində yerləşən Şərqi Azərbaycan vilayətinin Araz bölgəsində hərbi təlimlərə başlayıb.**

SEPAH generalı Məhəmməd Pakpur son açıqlamasında bildirib ki, Şərqi Azərbaycan və Ərdəbil əyalətlərində genişmiqyaslı hərbi təlim keçiriləcək və İran İnqilabı Keşikçiləri Korpusu Quru Qoşunları Aşura Qərargahı hərbi manevrə qatılacaq.

İranın 44 günlük müharibədən bu yana 3-cü dəfə eyni ərazidə təlim keçirdiyini deyən politoloq Sədrəddin Soltan "Şərq"ə bildirib ki, onlar bununla regiondakı qüvvələrə gücünü göstərir: "Rəsmi Tehran bu manevrlərlə həm daxildəki, həm də xaricdəki qüvvələrə sərhədlərini qorumağa kifayət qədər gücü olduğunu göstərmək istəyir. Başqa sözlə desək, İran xarici qüvvələrin regiondakı müttəfiqlərinə özünəməxsus işarıc verir. Bu təlimlər həm də daxili auditoriyaya hesablanıb. SEPAH göstərmək istəyir ki, İrandakı hakimiyyəti hərbi yolla və silah gücünə devirmək mümkün deyil. Hazırda isə Tehranın qonşu dövlətlərin ərazi bütövlüyünü pozmağa gücü və imkanı yoxdur. Çünki onlar İraqla 1980-ci ildəki müharibənin nəticələrini hələ də aradan qaldıra bilməyiblər. Təlimlərə qaldıqda isə bununla onlar, nəzarətin əllərində olduğunu və ölkənin istənilən yerində manevr edə biləcəklərini nümayiş etdirir. Təlimin Azərbaycanla sərhəddə başlaması isə bizə müəyyən mesajlar ünvanlamaq üçündür".

**Nihat Müzəffər**

# Abşeronda adam oğurlayan dəstə üzvləri tutulub



**Abşeron rayonu Qobu qəsəbə sakini olan bir nəfər polisə müraciət edərək borclu olduğu əvvəldən tanıdığı şəxslərin ona hücum etdiyini daha sonra naməlum ünvana apararaq qanunsuz olaraq orada saxladıqdan sonra mobil telefon və pulunun həmin şəxslər tərəfindən əlindən alındığını bildirib.**

DİN-dən "Şərq"-ə verilən məlumata görə, həmin şəxslər daha sonra zərərçəkənin fotolarını çəkərək onun yaxınlarına göndəriblər. Hadisə ilə bağlı dərhal Abşeron Rayon Polis İdarəsinin Qobu Polis Bölməsinin əməkdaşları tərəfindən araşdırmalara və zəruri əməliyyat tədbirlərinə başlanılıb. Tədbirlər nəticəsində qeyd edilən hadisəni törətməkdə şübhəli bilinən Qobu qəsəbəsi sakini Zaur Əliyev, Ceyhun Səmədzadə və qardaşı Rafiq Səmədov tutulublar. Saxlanılan zaman Ceyhun Səmədzadə ilə qardaşının üzərindən külli miqdarda narkotik vasitə olan heroin də aşkar edilib. Araşdırmalarla bu şəxslərin Qobu və ətraf qəsəbələrdə narkotik vasitələrin satışı ilə məşğul olduqları da ortaya çıxıb. Qobu Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən daha bir əməliyyat nəticəsində həyətində narkotik tərkibli çətənə kolları əkən əvvəllər də məhkum olunmuş Tariel Sadıqov saxlanılıb. Onun həyətinə baxış zamanı yaş halda çəkisi 10 kiloqram olan kultivasiya edilən çətənə kolları aşkar edilib.

*Qeyd olunan faktlarla bağlı Qobu Polis Bölməsində toplanan materiallar Abşeron Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib. Saxlanılan şəxslərin ətraflarında əməliyyat-istintaq tədbirləri davam etdirilir.*

# Fransa açıq şəkildə sülhü tormozlayır

## Makronun son çıxışları Azərbaycanın milli maraqlarına qarşı yönəlib



**Fransanın Bakıdakı səfirliyi önündə etiraz aksiyası keçirilib. Aksiya iştirakçıları Fransa Prezidenti Emmanuel Makronun sonuncu bəyanatından narazılıqlarını bildiriblər.**

**Analitik Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Fransa prezidentinin son çıxışları tamamilə Azərbaycanın milli maraqlarına qarşı yönəlib:** "Bu çıxışlar Azərbaycan-Ermənistan arasındakı münaqişənin sülh yolu ilə həllinə deyil, birbaşa Ermənistanın iddialarının dəstəklənməsinə xidmət edir. Buna qədər Azərbaycan-Ermənistan arasındakı son proseslərə fikir versək, sülhə doğru bir çox uğurlar əldə edildiyinin şahidi olarıq. Zəngəzurda avtomobil və dəmir yolunun çəkilişi, sərhədlərin delimitasiyası, demarkasiyası, Ermənistanın Azərbaycan tərəfinin irəli sürdüyü beş baza prinsipinə etiraz etməməsi kimi məsələlərdə razılığın əldə olunması. Hətta ən sonda Praqa görüşündə belə rəsmi İrəvanın Azərbaycanın ərazi bütövlüyünü MDB sərhədləri daxilində tanıması müsbət hal kimi qəbul olunurdu. Həmin görüş kifayət qədər pozitiv notlarla yadda qaldı. Xatırlayırsınızsa, Azərbaycan, Ermənistan, Türkiyə və Fransa prezidentlərinin iştirakı ilə dördlü görüş keçirildi. Bu görüşdən bir neçə gün sonra biz Fransa tərəfdən ölkəmizə qarşı bir sıra qərəzli addımlar gördük. Fransa parlamentinin altı üzvü Azərbaycana qarşı sanksiyalara çağırış etdi. Bizə qarşı rəsmi İrəvanın mövqeyini dəstəkləyən qətnamə layihəsini təqdim etdi. E.Makronun özü birbaşa canlı yayımda Qarabağı "Ermənistanın ürəyi" adlandırdı. Bildirdi ki, Qarabağ Azərbaycan tərəfindən işğal olunub və Ermənistan torpağıdır. Eyni zamanda Ermənistan-Azərbaycan sərhədində təyin olunan mülki missiyanın daha çox Fransanın marağında olduğu bəlli oldu". Analitikin sözlərinə görə, bütün bunlar açıq şəkildə Fransanın Praqa və Brüssel görüşlərində əldə olunan nəticələrdən imtina edib tamamilə ermənipərəst bir mövqeyə çəkildiyini göstərir: "Bu da böyük ehtimalla erməni diasporunun və yaxud Fransa ilə bəzi gizli ortaqlarının sövdələşməsinin nəticəsidir. Onlar Azərbaycana təzyiq göstərib Qarabağdakı erməni separatçılarının qalıqları üçün hansısa status qoparmaq istəyirlər. Azərbaycan cəmiyyəti, ictimaiyyəti açıq şəkildə öz mövqeyini ortaya qoymalıdır. Təkcə Azərbaycan dövləti deyil, Fransanın bu anti-Azərbaycan mövqeyi ilə Azərbaycan xalqı, sıradan vətəndaşlar belə barışmır. Azərbaycan vətəndaşları sırf bu ermənipərəst mövqeyə, haqqı, ədaləti təhrif edən, regionda sülhə xidmət etməyən bütün bu cür yanaşmaların əleyhinədir. İki ölkə arasında yekun sülhün imzalanması, sülhün tezliklə bərqərar olunmamasında Fransanın hazırkı mövqeyi birbaşa rol oynayır".

**Günəş Mərd**

Şərq Müstəqil ictimai-siyasi qəzet
18 oktyabr 2022-ci il (çərşənbə axşamı)


# Ani ürək dayanması keçirən insana nələri etmək lazımdır?





**Mərkəzi Gömrük Hospitalının həkim kardioloqu Şəhla Ağayeva "Həkim məsləhəti" rubrikasında "Ani ürək dayanması keçirən insana nələri etmək lazımdır" sualını cavablandırıb.**

Kardiak arrest adlandırılan ürək dayanması ürək vurğularının anidən dayanmasıdır. Ürək dayanması ilə orqanizmdə qan dövranı dayanır. Bu vəziyyət insan orqanizmində orqan və toxumaların oksigensiz qalmasına gətirib çıxarır. Oksigen olmadıqda insan orqanizmi çox sürətli bir şəkildə həyati funksiyalarını itirməyə başlayır. Bu səbəbdən Təcili Tibbi Yardım, tibbi briqada gələnə qədər ani ürək dayanması keçirən şəxsi həyatda saxlaya bilmək üçün ilk dəqiqələrdə müdaxilə edilməsi son dərəcə önəmlidir. Çünki statistik göstəricilər heç bir müdaxilə edilmədən keçən hər dəqiqədə insanın həyatda qalma şansının 10-12% azaldığını göstərir. Yəni ani ürək dayanması olan şəxsə heç bir şəkildə müdaxilə edilməzsə 10 dəqiqənin sonunda təəssüf ki, artıq edilə biləcək bir şey qalmır. İlk dəqiqələrdə lazımi müdaxilənin edilməsi insanın həyatda qalma ehtimalını artırır.

**Ani ürək dayanması keçirən birini gördükdə nələri etmək lazımdır ?**

İlk olaraq huşun, tənəffüsün, nəbzin olub-olmaması nəzarət edilməlidir. Huşsuz, tənəffüssüz (və ya anormal tənəffüs), nəbzsiz olduqu anlaşıldığı zaman həmən ətrafdan kömək istənilməli və Təcili Tibbi Yardım çağırılaraq müdaxiləyə başlanılmalıdır.

İlk yardım qapalı ürək masajı ilə başlayır. Xəstə sərt bir yerdə uzadılmalı, ağızda yad cisim varsa xaric edilməli, hava yolunu açmaq üçün bir əl xəstənin alnına digər əlin iki barmaqı çənə sümüyünə yerləşdirilərək baş geri çənə yuxarı pozisiyası verilməli və ürək masajına başlanılmalıdır. Ürək masajı üçün döş sümüyünün alt və üst kənarı təsbit edilməli, alt yarısına bir əlin ovucu yerləşdirilməli,digər əl bu əlin üzərinə yerləşdirilərək,barmaqlar bir birinə kilitlənilməlidir. (apa) Əllərin barmaqları döş qəfəsinə təmas etdirilmədən, dirsəklər bükülmədən, ovuc içi ilə döş sümüyü üzərində bədənə dik olacaq şəkildə 5-6 sm. dərinliklə basqılar edilməlidir. 30 dəfə basqıya qarşı 2 dəfə ağızdan-ağıza nəfəs verilməlidir. Bu basqılar dəqiqədə 100-120 basqı olacaq şəkildə tənzimlənməlidir. Bu müdaxiləyə xəstənin yaşam refleksləri və TTY gələnə qədər aralıqsız davam etdirilməlidir.

**Həyat yoldaşı qəzada ölən 34 yaşlı qadın Umudova Nahidə Sadiq qızı intihar edib.**

Hadisə Bakının Kürdəxanı qəsəbəsində baş verib. U.Nahidə özünü yaşadığı evin həyətindəki qaz borusundan asıb.

Onun meyitini bacısı və qonşusu aşkar ediblər.



# İntihar dəhşətli hissdir

## Həmin an insanın gözünə heç nə görünmür

N.Umudova intihardan əvvəl mərhum ərinin telefonuna "Mən sənsiz qala bilmərəm" sözlərini yazıb. Cütlük 18 il evli olub. 16 il sonra isə oğul övladları dünyaya gəlib.

Qadının bu addımı əksər sosial media istifadəçisi tərəfindən qınanılıb. Onun hər şeyə rəğmən öz azyaşlı övladını tək qoymamalı olduğuna dair fikirlər səsləndirilib.

**Hadisə ilə bağlı "Şərq"ə danışan psixoloq Azad İsazadənin sözlərinə görə, intihar edən şəxs bu həyatdan o qədər inciyir ki, həmin anda onun gözünə heç nə görünmür:** "Fərd yaşamağa heç bir səbəb tapa bilmir. Belə psixoloji durumda olan adam ondan geriyə qalacaq uşağının həyatını düşünə bilməz.

**"Belə psixoloji durumda olan adam ondan geriyə qalacaq uşağının həyatını düşünə bilməz"**

Bu, pataloji bir məntiqdir. O hesab edir ki, övladı onsuz yaşamağa öyrəşəcək. Normal düşüncə olmasa da, həmin anda şəxsin gördüyü yeganə çıxış yolu budur.

Görünən odur ki, intihar edən qadın ürəyində yaranan ağrını başqa cür soyuda bilməyib və həyatdan qopub. Belə psixoloji durumda olan şəxslərə ailədən göstərilən dəstək az da olsa onlara təsəlli ola bilər və gələcəkdə baş verə biləcək bədbəxt halların qarşısı alınar".

**Günəş Mərd**



# Azərbaycanda satılan lüks avtomobillərin sayı artıb

**2022-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda satılan lüks avtomobil brendləri üzrə satışların həcmi məlum olub.**

"APA-Economics"in avtomobil bazarından əldə etdiyi məlumata görə, 6 marka üzrə satışların ümumi sayı 1442 ədəd təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 16,1% çoxdur.

"Mercedes" bu ilin doqquz ayında 391 ədəd satışla bazar üzrə liderliyini (27,1% bazar payı) qoruyub. Bununla belə, markanın satışları ötən ilin eyni dövrünə nisbətən 10,3% azalıb.

Premium seqmentdə Yaponiya brendi "Lexus" Azərbaycanda satış həcminə görə (364 ədəd) siyahıda ikinci olub. Ötən ilin eyni dövrünə nisbətən markanın satışları 77%-dən çox artıb. Siyahıda üçüncü olan BMW-nin satışları 10,4% azalaraq 259 ədədə düşüb. Qeyd edək ki, Almaniya markası ötən ilin doqquz ayında Azərbaycanda 289 avtomobil sata bilmişdi.

Bu dövrdə "Audi"nin satışları 52% artaraq 187-ə, "Land Rover"in satışları 38,5% artaraq 162-yə, "Porsche"nin satışları isə 9,7% artaraq 79 ədədə çatıb.

Avtomobil şirkətləri bildirirlər ki, satışlarda yaranan ümumi artım tempi pandemiyadan sonra həyatın öz axarına qayıtması ilə bağlıdır. Bundan əlavə Rusiya və Ukrayna arasında yaranan münaqişə ilə bağlı hər iki ölkədə yaşayan azərbaycanlıların bir hissəsi ölkəyə qayıdır və vəsaitlərini burada xərcləyir, o cümlədən avtomobil alırlar.

# Bəzi valideynlər uşaqları ilə dostluğu seçirlər

## Ancaq dost və ana rollarını eyni vaxtda oynamağa cəhd ediləndə problemlər yaranır



**Oğlanlarda 10-15, qızlarda 9-13 yaş arasında başlayan yetkinlik dövrü uşaqlıqdan gəncliyə keçid zamanı problemləri də özü ilə gətirir. Əhval-ruhiyyəsi və davranış tərzi dəyişən bir yeniyetmə ilə necə ünsiyyət qurmaq olar?**

Yeniyetmələr valideynlərinin davranışlarını şübhə altına almağa başlayırlar. Yeniyetməlik dövründə ictimai həyatda əhəmiyyətli bir dəyişiklik yaşanır. Yeniyetməlik dövrü ilə birlikdə ailəsindən çox dostları ilə vaxt keçirməyə üstünlük verir və onu narahat edən şeyləri valideynlərinə deyil, dostlarına deməyə başlayır.

Yeniyetmələr valideynləri ilə problemləri olanda dost qrupundan dəstək alırlar. Yeniyetmələrin həmyaşıdları tərəfindən bəyənilməsi və həmyaşıdları tərəfindən qəbul edilməsi çox vacibdir. Bu dövrdə yeniyetmə oxşar maraqları və dəyərləri olan insanlara üstünlük verməyə və uşaqlıqdan fərqli olaraq dostları ilə daha güclü emosional bağlar qurmağa başlayır.

Yeniyetməlik dövrü valideynlərlə mübahisələrin ən yüksək həddə çatdığı dövrdür. Bu dövrdə əksər valideynlər yeniyetmənin xahişindən imtina edərkən onun hələ uşaq olduğunu bildirirlər. Amma ona öz vəzifələrini xatırladaraq, artıq uşaq olmadığını bildirir. Bu ardıcıl olmayan söhbətlər ailə və gənclik münasibətlərini pozur. Amma bu münaqişələr normal inkişafın tərkib hissəsidir. Uşaqların heç vaxt özlərini və valideynlərini sorğu-sual etməmələri, münaqişə etməmələri də problemin göstəricisi ola bilər. Bu səbəbdən valideynlər övladlarının onlara qarşı mənfi reaksiyalarının yaşadıqları dövrdən qaynaqlana biləcəyini nəzərə almalıdırlar.

Bəzi valideynlər münasibətləri münaqişədən xilas etmək üçün uşaqları ilə dostluq etməyi seçirlər. Ancaq dost və ana rollarını eyni vaxtda oynamağa cəhd edildəndə bir-birini kəsirlər. Uşağınızın yaxın dostu olmaq ana olmağın qiymətli tərəflərini göstərməyinizə mane ola bilər. Dostluq həmyaşıd münasibətidir və bərabərlik gətirir. Halbuki, ana olmaq hədd qoymaq və hakimiyyət qurmaq deməkdir. İcazə istəyən, icazə verən və bəzən yox deyən şəxs olmaq deməkdir. Bu dostluğun əksidir. Əslində ona sevginizi sonuna qədər göstərmək, hər zaman arxasında olduğunuzu hiss etdirmək, bəyəndiyiniz hissələri qaçırmadan doğru yerdə tənqid etmək, yaxşı dinləyici olmaq çox daha faydalıdır. Yeniyetmələrin ən sevmədiyi şeylərdən biri də tənqid olunmaqdır. Onları tənqid etmək və davamlı olaraq nə edəcəyini söyləmək əvəzinə, onlara qulaq asın. Onun dediklərinə və nə demək istədiyinə diqqət yetirin. Uzun cümlələrdən qaçın və bütün diqqətinizin söhbətdə olduğundan əmin olun.

Uşağınızla eyni dildə ünsiyyət qurmağa çalışın. Əgər öz aralarında işlətdikləri jarqonlar varsa, onları mənimsəyin və bu şəkildə danışın. O, başa düşüldüyünü və onun tərəfində olduğunu hiss edir. Uşağınızın marağına səbəb ola biləcək fəaliyyətləri kəşf edin və onları birlikdə etməyi təklif edin. Misal üçün; Sevimli komandasının matçlarına və ya sevimli qrupunun konsertinə gedin. Yeniyetmələrə dost mühitini tanımaq üçün təzyiq edilməməli, onlara hiss etdirmədən uzaqdan müşahidə edilərək doğru və yanlış anlayışlar ifadə edilməlidir. Təbii ki, bunu edərkən dövrün şərtləri də nəzərə alınmalı, nəsillər arası qarşıdurma yaranmamalıdır. Ola bilsin ki, bəyənmədiyiniz insanlarla dostluq edir, lakin yeniyetmələr üçün ilk növbədə sosial mühit gəlir. Ətrafındakı insanları tənqid etməyiniz heç nəyi dəyişmir, əksinə, onlara yaxınlaşır və onlar haqqında sizə heç nə deməməyə başlayır. Sadəcə qulaq asın! Onda daha çox məlumatınız olacaq, uşağınızı qoruya bilərsiniz.

**Günəş**

# Türkiyəli TIR sürücüsünə "tələ" qurulub

## Jurnalist Azərbaycanın səlahiyyətli orqanlarından ədalət gözləyir





**"Azərbaycanda Oktay Çinar adlı bir vətəndaşımızın həbs edilməsi üzündən məni media nümayəndəsi olaraq Bakıya göndərdilər".**

**Bunu "Şərq"ə açıqlamasında türkiyəli televiziya proqramçısı və aparıcısı, jurnalist Ercan Gönültaş deyib:**

O bildirib ki, Oktay Çınara "tələ" qurulduğunu düşünür:

"Oktay evlidir və 2 qız atasıdır. Türkiyənin Zonquldaq şəhərində yaşayan həmyerlim dolanışığını TIR sürücüsü olmaqla təmin edir. O, Türkiyədən Qazaxıstana mal gətirdiyi zaman Fatih Şahin adlı sürücü tanışından təklif alır. Fatih deyir ki, onsuz da boş qayıdırsan, 1000 dollar qarşılığında mis yüklü TIR var onu da Türkiyəyə apar. Bununla razılaşan Oktay MAN markalı 41F966/71AAJ679 nömrəli TIR-ın sahibi Ünal Aydınla tanış olur və yola çıxır. Vladiqafqazla Türkiyəyə gəlməli olan sürücüyə, istiqaməti daha uzun yol olan Azərbaycana çevirmək tapşırılır. Azərbaycana çatanda, artıq onun yanacağı bitir. Bunu TIR-ın sahibinə bildirdikdə isə ona Murad adlı azərbaycanlının ehtiyaclarını həll edəcəyi deyilir. Muradla telefonla əlaqə quran Oktay TIR-la bərabər anbara aparılır.

Bir müddət anbarda qalan Oktay daha sonra baxır ki, TIR-ın qıfılı və möhürü sökülüb. Buna qarşı çıxan zaman isə maşının sahibi ona zəng edir və sən qarışma, hər şey yaxşı olacaq deyir. Ona bildirilir ki, artıq sənin işin bitib və səni təyyarə ilə Türkiyəyə göndərəcəyik.

Nəticədə də Oktay hava limanına gətirilir və ona bilet alınır. Lakin onun təyyarə ilə getməsinə icazə verilmir. Deyilir ki, sən TIR-la gəlmisən, onunla da getməlisən. Geri qayıdaraq 3-4 gün Qazaxda oteldə qalan Oktayı, qeyri-qanuni yolla sərhəddən keçirmək istəyirlər. Amma o, bununla razılaşmır. Bu səbəblə də onun telefon nömrəsini əlindən alıb qırırlar. Öz imkanları ilə otelə gələn Oktayı bir neçə saat sonra polis tutur. Oteldə tutulmağına rəğmən sərhədə gətirilərək burada şəkilləri çəkilir və sərhəd pozucusu kimi qələmə verilir".

Türkiyəli həmkarımızın sözlərinə görə, Toğrul İbrahimli adlı gömrük prokuroru yaxşı araşdırma aparmır: "Gömrük prokuroru Toğrul İbrahimli Oktay Çinarın əleyhinə iddia qaldırır. 6 ay boyunca bu işə o baxır. Oktaya "sən buradan çıxacağını düşünürsənmi?" deyir.

Prokurorun işə qərəzli yanaşdığı əsas gətirilərək, o, işdən kənarlaşdırılır. Məsələyə isə yeni gömrük prokuroru Orxan Duşdurov baxır. Yeni prokuror Oktayın sərhəddə deyil, oteldə tutulduğunu otel kamerasından müəyyən edir".

E.Gönültaşın dediyinə görə, müəyyən edilib ki, burada əsas günahkar xaricdəki mal sahibi Mustafa Kılıçparlar, qardaşı Cuma Kılıçparlar və Ünal Şahindir ki, onlar planlaşdırdıqları qurama işləri Azərbaycanda gerçəkləşdirmək istəyiblər. E.Gönültaş vurğulayıb ki, Oktayı Murat adlı şəxslə də görüşdürən məhz bunlar olub, depo sahibi də, gömrük prokuroru da, TIR-ın gömrük kilidini sındıranlar da bunların adamları olub: "Belə açıq-aşkar hiylə quranlar azadlıqda, təhdid və təzyiq altında saxlanılan Oktay Çınar isə həbsxanadadır. "Canbey" firmasının rəhbəri Mustafa Kılıcparların gömrük prokuroru Toğrul İbrahimliyə rüşvət verdiyi barədə şübhələr araşdırılmalıdır. Oktay Çınarın vəkili İsrafil Əlili də bu barədə iddia qaldırmır. Heç kim məsələni həll etməyə çalışmır. Yük maşını "Qırmızı körpü"də gömrükdə oğurlanmayıb, Oktay Çınara nə deyiblərsə, onu etməyə məcbur olub, ona hədə-qorxu gəlinib. Oktay Çınar qaçmayıb, mal ortadadır, Oktay Çınar niyə həbsxanada saxlanılır?

Oyunları baş tutmadığı üçünmü onu burada saxlayırlar? Birilərinin daha çox pul qazanması üçün qurulan bu oyun pozulduğu üçünmü Oktay içəridədir? Oktay Çınar bu olay barədə polisə məlumat verməkistəməsindən dolayımı burada tutulur? Oktay ona bir pislik gələ biləcəyindən qorxaraq susmalı oldu. O, bu olaydan həm maddi, həm də mənəvi yara alıb".

Türkiyəli jurnalist qeyd edib ki, azərbaycanlı qardaşlarımızın məsələyə həssas yanaşmasını istəyir: "Çınarın qardaşları və doğmaları gözlərini Azərbaycana və səlahiyyətli qurumların ədalətinə dikib, onlar tezliklə Oktaya qovuşacaqlarına ümid edirlər. Səlahiyyətli orqanlardan Oktay Çınarın günahsız olduğunu sübuta yetirmələrini və onun tez bir zamanda həbsdən azad edilməsini istəyirik. Hər kəsdən və səlahiyyətli şəxslərdən bu hadisəni tez bir zamanda həll etməyi xahiş edirik".

**Nihat Müzəffər**



## Noyabrın 8-də ilin ikinci Ay tutulması baş verəcək

**Noyabrın 8-də 2022-ci ilin ikinci Ay tutulması hadisəsi baş verəcək. Bu, tam Ay tutulması olacaq.**

BDU-nun Astrofizika kafedrasından verilən xəbərə görə, saat 12:02-də yarımkölgəli, 13:09-da qismən, saat 14:16-da isə tam tutulma başlayacaq. Tutulmanın maksimumu saat 14:59-da olacaq. Saat 15:41-də tam tutulma, saat 17:56-da isə qismən tutulma başa çatacaq.

2022-ci ilin ikinci tam Ay tutulmasını Asiyadan, Avstraliyadan, Şimali Amerikadan, Şimali və Şərqi Avropanın bir hissəsindən və Cənubi Amerikanın çox hissəsindən müşahidə etmək mümkün olacaq.

Tutulma zamanı Ay üfüqdən aşağıda olduğuna görə tutulmanın əsas mərhələsi Bakıda görünməyəcək, yalnız son 25 dəqiqə (17:31-17:56) müddətində şərq tərəfdə üfüqdə yarımkölgəli tutulmanı izləmək mümkün olar. Yarımkölgəli Ay tutulmasını görmək çətin olur, çünki kölgəli hissə Ayın qalan hissəsindən azacıq zəifdir.

**Elan**

Azərbaycan Ovçular Cəmiyyəti tərəfindən Sailov Cavanşir Əziz oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olu-**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB3807001944110046611**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3003**

# Ceyranların Cəbrayıl və Zəngilana qaytarılmasına başlanılır

**Həssas ekosistemlərin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün əsas fəaliyyətlərdən hesab olunan reintroduksiya layihələri davam etdirilir.**

İşğal dövründə bioloji müxtəliflik komponentlərinə ciddi ziyan dəymiş Qarabağ bölgəsində də bu layihələrin icrası planlaşdırılır.

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Rəşad Allahverdiyev bildirib ki, işğaldan azad edilmiş ərazilərdə fauna növlərinin-ceyran, bezoar keçisi, dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin 2022-2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub:



"Artıq balıq növlərinin populyasiyasının bərpası üçün işlər görülüb. Son iki ildə işğaldan azad edilmiş ərazilərdəki Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə qızılxallı forel balığının buraxılışı təşkil olunub və bu işlər növbəti dövrlərdə də həyata keçiriləcək".

Xidmət rəsmisinin sözlərinə görə, ceyran fərdlərinin Cəbrayıl və Zəngilan rayonları ərazisinə, əvvəllər məskunlaşdıqları areallarına qaytarılması üçün hazırlıq işlərinə başlanılıb.

"Hazırkı dövrədək ümumilikdə, 293 baş ceyran ölkənin təbii areallarına reintroduksiya edilib və aparılan son sayğı monitorinqlərinin nəticələrinə görə, Azərbaycanda 7000-dən artıq ceyran fərdinin yayılması qeydə alınıb".

Xidmət rəsmisi digər layihələrin, xüsusilə zubrların Azərbaycanda tarixi məskunlaşma yerlərinə qaytarılması prosesinin də uğurla davam etdiyini xatırladıb.

"İDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyinin birgə fəaliyyəti nəticəsində artıq ölkəmizə reintroduksiya olunan bizonların ümumi sayı 31 başa çatdırılıb".



## Ukrayna müharibəsinin cəbhə xəttində toy

### "Bundan mükəmməl bir şey təsəvvür edə bilməzdim!"

**Ukrayna-Rusiya müharibəsi bütün şiddəti ilə davam edir.**

**Cəbhə xəttindən evlilik xəbərləri gəlir. Müharibədən əvvəl zərgər olan 31 yaşlı Evhenia Emerald Xarkovda Evheni Stypaniukla evlənib.**

**"Şərq" xarici mediaya istinadən xəbər verir ki, müharibədən əvvəlki Ukraynada zərgərlik edən Evheniya Emerald rusların hücumundan sonra cəbhəyə getmək və snayper olmaq qərarına gəlib.**

**Ukraynalıların "Kiyevli Janna d'Ark" kimi tanıdığı Emerald müharibə zamanı tanış olduğu Evheni Stypaniukla evlənib. Cütlük hətta toy günü də cəbhədə idilər. Emerald instaqramda ağ paltarda, ərini isə kamuflyaj gödəkçədə və əlində silahla əks etdirən bir sıra fotolar yerləşdirib. O, "Mən bundan mükəmməl toy təsəvvür edə bilməzdim!" mesajını da yazıb.**

**Turan**

## İtkin düşən rusiyalı turist...

### 39 gün sonra qayalıqda ölü tapılıb





**39 gün əvvəl Antalyanın Kəmər mahalının Çalıştepe səmtində gəzintiyə çıxdıqdan sonra yoxa çıxan rusiyalı turist 70 metrlik qayalıqda ölü tapılıb.**

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, Kəmərdə tura çıxan bir turist qayanın üzərində meyit görüb və vəziyyəti dərhal qaldığı otelin rəhbərliyinə bildirib. Antalya İl Jandarma Komandirliyi Jandarma Axtarış Qurtarma (JAK) qrupu cəsədi 70 metrlik uçurumdan çıxarmaq üçün hadisə yerinə gəlib.**

**Təxminən 5 kilometr yol getdikdən sonra uçurumdan enən qruplar cəsədi dəniz sahilindəki qayalıqlara aparıblar. Kəmər Dövlət Xəstəxanasında müayinə zamanı mərhumun üzərindəki ayaqqabı, şort və maykanın sentyabrın 8-dən itkin düşən rusiyalı turist Vladislav Senqoviçə (47) aid olduğu müəyyən edilib. Kəmər Respublika Prokurorluğunun araşdırmasından sonra cəsəd Antalya Ədli Tibb Qurumuna göndərilib.**

**Turan**

## "Kloun"un Zeyni evləndi

### Cütlük 11 ildir eşq yaşayır



**Məşhur Braziliya serialı "Kloun"da Zeyn obrazını canlandıran 53 yaşlı aktyor Lusiano Şafir müğənni Lili Xanla ailə həyatı qurub.**

**Axşam.az xəbər verir ki, cütlük 11 ildir eşq yaşayır. "11 ildir ki, qurduğumuz münasibətimizi qeyd edirik. Lili, səni nə qədər çox sevdiyimi və sənə olan sevgimin sonsuza qədər davam edəcəyini bilməni istəyirəm. Əməyi keçən hər kəsə təşəkkürlər, bu gün unudulmaz oldu" deyə, Şafir İnstaqram sosial şəbəkəsində yazıb.**

**Toy mərasimində aktyorun əvvəlki nikahdan olan qızı və Lilidən olan əkizləri iştirak ediblər. Braziliya mediası da aktyorun iki dəfə koronavirusdan əziyyət çəkdikdən sonra səhhətində problemlər olduğunu bildirdi - buna görə də toy şəkillərində əsa taxır.**






# Xərçəng peyvəndi üçün tarix verildi

### Uğur Şahin və Özlem Türeci yeni işlərindən danışdı

**"Covid-19"a qarşı hazırladıqları mRNT peyvəndləri dünyada geniş şəkildə istifadə edilən professor Uğur Şahin və professor Özlem Türeci cütlüyü xərçənglə mübarizə ilə bağlı işlərindəki son vəziyyəti anladıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, müxtəlif xərçəng növlərini, xüsusən də bağırsaq xərçəngi və melanomanı hədəf alan müalicələr üzərində işləyən ikili, xərçəng peyvəndi üçün çox yaxın bir tarix verib.

Pandemiyanın ən uğurlu "Covid-19" peyvəndlərindən birinin arxasında duran komandaya görə, xərçəngə qarşı peyvəndlər tezliklə mövcud ola bilər. İnqilabi mRNA Covid peyvəndi istehsal etmək üçün "Pfizer" ilə əməkdaşlıq edən "Alman BioNTech" şirkətinin həmtəsisçiləri Uğur Şahin və Özlem Türeci, xərçəng peyvəndini qarşıdakı illərdə hazır etmək üçün bir çox irəliləyişlərə imza atdıqlarını açıqlayıblar.

BBC-nin əməkdaşı Laura Kuenssberglə söhbətləşən Özlem Türeci, BioNTech-in "Covid-19" peyvəndinin altında yatan mRNA texnologiyasının xərçəng hüceyrələrinə hücum etmək üçün təkrar istifadə edilə biləcəyini söyləyib.

mRNA texnologiyasına əsaslanan xərçəng vaksinlərinin xəstələrdə nə vaxt istifadəyə hazır ola biləcəyi sualına cavabında Uğur Şahin bildirib ki, xərçəngə qarşı peyvəndlər "2030-cu ildən tez" hazır ola bilər. BioNTech-in baş tibb işçisi Türeci, "Covid-19"a qarşı istifadə edilən eyni yanaşmanın immunitet sistemini xərçəng hüceyrələrini axtarmağa və məhv etməyə hazırlamaq üçün tətbiq oluna biləcəyini söyləyib. Türecinin sözlərinə görə, xərçəng peyvəndi virusları müəyyən edən kodu daşımaq əvəzinə xərçəng antigenləri üçün genetik təlimatlar ehtiva edir. Digər tərəfdən, BioNTech pandemiya başlamazdan əvvəl mRNA xərçəngi vaksinləri üzərində işləyirdi, lakin şirkət qlobal fövqəladə vəziyyət qarşısında "Covid-19" peyvəndi istehsal etmək üçün hərəkətə keçdi. BioNTech-də hazırda klinik sınaqlarda olan bir çox xərçəng peyvəndi var. Türeci, Pfizer/BioNTech peyvəndinin müvəffəqiyyətinin "xərçəng araşdırmalarını sürətləndirdiyini" ifadə edib. Bağırsaq xərçəngi, melanoma və digər xərçəng növlərinə qarşı peyvəndləri inkişaf etdirməyi hədəflədiklərini ifadə edən Şahin və Türeci də onların qarşısındakı mühüm maneələri də açıqladılar.

İkilinin fikrincə, şişləri meydana gətirən xərçəng hüceyrələri müxtəlif zülallara malik ola bilər. Bu, sağlam toxumaları də-



yil, bütün xərçəng hüceyrələrini hədəf alan bir peyvəndin hazırlanmasını olduqca çətinləşdirir.Türeci, BioNTech-in pandemiya zamanı mRNT peyvəndlərini daha sürətli istehsal etməyi öyrəndiyini və insanların immun sistemlərinin mRNT-yə necə reaksiya verdiyini daha yaxşı başa düşdüyünü söyləyib. "Covid-19" peyvəndinin inkişafı və sürətlə çatdırılmasının dərman tənzimləyicilərinə peyvəndləri necə təsdiqləyəcəkləri üzərində işləməyə də kömək etdiyini vurğulayan Türeci, "Bu, şübhəsiz ki, xərçəng peyvəndimizin inkişafını və təsdiqini sürətləndirəcək" deyib. Türeci son olaraq deyib: "Biz elm adamları olaraq xərçəngin müalicəsini tapacağımızı söyləməkdə həmişə tərəddüd edirik. Bəzi irəliləyişlərimiz var və biz onların üzərində işləməyə davam edəcəyik".

**Turan**



# Araşdırma təəccübləndirdi

### Dünyadakı bütün mavi gözlü insanlar eyni soydandır



**Elmi araşdırmaya görə, dünyadakı bütün mavi gözlü insanlar 6-10 min il əvvəl yaşamış bir insanın nəslindəndir.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, "General Certificate of Secondary Education" (GCSE) elmi jurnalında dərc edilən son araşdırmaya görə, dünya əhalisinin 8-10 faizini təşkil edən mavi gözlü insanlar eyni əcdadın nümayəndələridir.

Göz rənglərini araşdıran alimlər uzun illər insan gözündə qəhvəyi piqmentin səviyyəsini təyin edən OCA2 genini tədqiq ediblər. Tədqiqatçılar genetik mutasiyaya məruz qalana qədər uzun illər əvvəl bütün insanların qəhvəyi gözlərə sahib olduğu iddiasını irəli sürürlər. Mavi gözlərə səbəb olan bu genetik mutasiya HERC2 adlı gendən qaynaqlanır. Alimlər qəhvəyi göz piqmentini təşkil edən OCA2 geninin mutasiyaya uğrayaraq HERC2 geninə çevrildiyini irəli sürüblər. İlk mavi gözlü insanın 10.000 il əvvəl Avropada yaşadığı və bütün mavi gözlü insanların eyni mutasiyaya məruz qaldığı güman edilir. Bu gen mutasiyasında göz rəngləri dəyişir, dəri tonunu təyin edən piqmentlər eyni qalır. Bu mutasiya bütün bədəndə baş verərsə, albinizmin yaşanacağı şəksiz olur.

Kopenhagen Universitetinin professoru Eyberq deyir: "Eyni dəyişiklik mavi gözlü insanların DNT-sində də baş verdi". Qəhvəyi gözün dominant gen olduğuna və qəhvəyi gözlü cütlüyün mavi gözlü uşaq sahibi ola bilməyəcəyinə inanılsa da, bunun əksini göstərən çoxlu nümunələr var. Beləliklə, mavi gözləriniz varsa, düşündüyünüzdən daha böyük bir ailənin üzvü olduğunuza inana bilərsiniz.

**Turan**

## İlk dəfə bir araya gəliblər

### Selena Qomezlə Heyli Biber qalmaqallardan sonra görüntülənib



**Məşhur model Heyli Biber həyat yoldaşı müğənni Castin Biberin keçmiş sevgilisi Selena Qomezlə qalmaqallardan sonra ilk dəfə bir araya gəlib.**

Axşam.az xəbər verir ki, ikili şənbə günü "LA Film Academy Gala" bir araya gəlib. Onlar fotoqraf Tyrell Hamptonun kamerasına birgə pozlar veriblər. Fotoqraf həmin anları sosial media hesabında paylaşıb.

*Qeyd edək ki, Castin 2018-ci ildə Selena ilə ayrıldıqdan qısa müddət sonra Heyli ilə ailə qurmuşdu. Bundan sonra tərəflər arasında yaşananlar ulduzların pərəstişkarları tərəfindən birmənalı qarşılanmamışdı. Selenanın izləyiciləri davamlı olaraq Castinlə Heylinin ona haqsızlıq etdiyini bildirərək cütlüyü hətta təhqir edirdilər.*